RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 190 (9357) 5 SENTYABR 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Güzəşt olmayacaq

## İlham Əliyevin şərtləri qəbul edilməyənə qədər Ermənistanla sülh sazişi imzalanmayacaq

"İndi sülh bizim gündəliyimizdədir. Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq. Çünki bizim Ermənistana qarşı hər hansı bir ərazi iddiamız yoxdur. Biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik. Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıların nəzarəti altında olan ərazidə yaşayan insanlar Azərbaycanda yaşayırlar. Onlar ölkəmizdəki digər çoxsaylı milli azlıqlar kimi Azərbaycan vətəndaşları olaraq yaşayacaqlarına və ya Azərbaycanı tərk edəcəklərinə dair seçim etməlidirlər. Bu onların seçimidir. Biz bunu onların buranı tərk etməsini istədiyimizə və ya Ermənistanın bizi etnik təmizləmə siyasəti aparmaqda günahlandırdığına görə etmirik. Biz onlara seçim hüququ veririk".

İkinci Qarabağ müharibəsindən sonra regionda davamlı təhlükəsizliyin təmin olunması üçün Ermənistana sülh müqaviləsi təklif edən İlham Əliyev bütün müsahibələrində, çıxışlarında bir daha göstərir ki, mövqeyində heç bir dəyişiklik yoxdur. Bu, hər zaman olduğu kimi Azərbaycan Prezidentinin sözünün imzası qədər keçərli olduğunun, dilə gətirdiyi istənilən fikrə sadiqliyinin əyani təzahürüdür.

Proseslər göstərir ki, Ermənistanda hakimiyyət çevrilişinə hazırlıq gedir. Müharibə istəməyən xalq Nikol Paşinyanın ikiüzlülük siyasətinə şahidlik edir. Ermənistanda hesab edirlər ki, baş nazir atdığı son addımlarla bir daha göstərir ki, o da Köçəryan-Sarkisyan hərbi xuntasının yolunu gedir. Bu yol isə Hayastanı daha acınacaqlı vəziyyətə doğru aparır.

→ 4

# "Xınalıq və Köç yolu" Dövlət Tarix-Mədəniyyət və Etnoqrafiya Qoruğunun yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Quba rayonunun Xınalıq kəndindən Pirsaat su anbarınadək uzanan və Qusar, Quba, Şamaxı, Qobustan, Abşeron və Hacıqabul rayonları ərazisindən keçən 200 kilometrdən artıq köç yolu yüz illər boyu Şirvan və Quba bölgəsinin köçəri heyvandarlıq təsərrüfatlarının istifadə etdiyi əhəmiyyətli yol olmuşdur. Köçəri heyvandarlıq təsərrüfatları tərəfindən indi də istifadə edilən həmin köç yolu üzərində yüksək tarixi-mədəni dəyərə malik çox sayda abidəyə rast gəlinir. Bu yolun Azərbaycanın mədəni sərvətlərinin qiymətli nümunələri sırasında özünəməxsus yeri vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycanın mədəni irsi üçün əhəmiyyətini nəzərə alaraq, köç yolunun yerləşdiyi ərazinin qorunması, vahid idarəetmə modelinin yaradılması və burada turizmin inkişaf etdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğunun ərazisi və Qusar, Quba, Şamaxı, Qobustan, Abşeron və Hacıqabul rayonlarından keçən tarixi köç yolunun ərazisi "Xınalıq və Köç yolu" Dövlət Tarix-Mədəniyyət və Etnoqrafiya Qoruğu (bundan sonra - Qoruq) elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti beş ay müddətində:

2.1. Qoruğun sərhədlərini və mühafizə zonasını müəyyənləşdirib təsdiq etsin;

2.2. Qoruğun ərazisinin xüsusi rejimini müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi:

3.1. Qoruğun idarə olunmasını təmin etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Qoruğun fəaliyyətinin təmin edilməsi ilə bağlı tələb olunan zəruri xərclərin maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 sentyabr 2023-cü il*

# Milli iradənin təntənəsi

## Azərbaycan beynəlxalq hüquq çərçivəsində Laçında sərhəd nəzarət-buraxılış məntəqəsini qurmaqla Ermənistanın və xarici havadarlarının separatizmə uzanan əllərini qırdı

Azərbaycanın Qarabağda yaşayan erməni sakinlərin reinteqrasiyası ilə bağlı ardıcıl əməli addımlar atması, həmin sakinlərin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi və digər alternativ yollardan istifadə ilə bağlı təkliflər verməsi, eləcə də Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən ilkin olaraq Xankəndiyə 40 ton un göndərməsi həqiqəti üzə çıxartdı, bədnam erməni yalanlarını açıb ortaya qoydu.

"Bizə qarşı aparılan kampaniya, çirkin təbliğat bizim iradəmizə təsir edə bilməz, bizi yolumuzdan döndərə bilməz. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, biz heç kimdən qorxmuruq və bunu göstərmişik, həm döyüş meydanında, həm siyasi müstəvidə", - deyə Laçından, Həkəri çayının sahilindən Müzəffər Ali Baş Komandan İlham Əliyev dünyaya bəyan etdi.

→ 5

# San-Marino Respublikasının Regent Kapitanları zati-aliləri cənab Alessandro Skarano və xanım Adele Tonniniyə

Zati-aliləri!

San-Marinonun milli bayramı - Respublika Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost San-Marino xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 avqust 2023-cü il*

# Qanunsuz erməni silahlıları Xocavənd rayonu istiqamətində yeni səngər yolları qazmağa cəhd göstəriblər

Sentyabrın 4-ü saat 11:20-də Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Havuş yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin üzbəüz istiqamətdəki bölmələri tərəfindən atıcı silahlardan atəşə tutulub. Ordumuzun bölmələri qeyd olunan istiqamətdə cavab tədbirləri görüblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bundan başqa, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində fəaliyyət göstərən qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Xocavənd rayonu istiqamətində yerləşən mövqelərinə yaxınlaşmaq məqsədilə yeni səngər yolları qazmağa cəhd göstəriblər. Ordumuzun bölmələri görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan qazıntı işlərinin qarşısını dərhal alıblar.

# Azərbaycan-Çin işgüzar əlaqələri genişlənir

Azərbaycan və Çin arasında sənaye sahəsində investisiya əlaqələrinin hazırkı vəziyyəti, o cümlədən qeyd olunan sahədə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsini təmin etmək üçün həyata keçirilə biləcək potensial tədbirlər barədə fikir mübadiləsi aparılıb. Vurğulanıb ki, gəmiqayırma, bərpa olunan enerji, o cümlədən külək və günəş enerjisinin istehsalı üçün lokallaşdırma, şəhər infrastrukturunun qurulması kimi sahələrdə birgə layihələrin reallaşdırılması üçün potensial var və bu istiqamətdə işlər davam etdirilir. Sənaye sahələrinin modernləşdirilməsinin əhəmiyyəti və Çinin bu sahədə qabaqcıl təcrübəsi nəzərə alınaraq bu sahələrdə də birgə layihələrin həyata keçirilməsi və qarşılıqlı təcrübə mübadiləsi üçün imkanları genişdir.

→ 2

# "Revival P" minatəmizləmə maşını Qarabağ Dirçəliş Fondu tərəfindən ANAMA-ya təqdim olunub



Xəbər verildiyi kimi, avqustun 26-da sahibkarlar tərəfindən Qarabağ Dirçəliş Fonduna (QDF) "İmprotex İndustries" (Azərbaycan) şirkətinin istehsalı olan "Revival P" minatəmizləmə maşını ianə olunub. Sentyabrın 4-də QDF tərəfindən həmin maşının Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinə (ANAMA) verilməsinə həsr olunan təqdimat mərasimi keçirilib.

→ 2

# İkinci Qarabağ müharibəsindən bu günədək 305 nəfər mina qurbanı olub

İşğaldan azad olunmuş rayonlarda 2020-ci ilin noyabrından bu günədək 95 min hektardan çox ərazi minalardan təmizlənib.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov jurnalistlərə açıqlamasında deyib. O qeyd edib ki, bu vaxtadək 30 minə yaxın piyada əleyhinə mina, 17 minə yaxın tank əleyhinə mina və 40 mindən çox partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib.

"İkinci Qarabağ müharibəsi bitdikdən sonra 305 nəfər mina qurbanı olub. Onlardan 57 nəfəri həyatını itirib, qalanları isə müxtəlif dərəcəli bədən xəsarətləri alıblar", - deyə ANAMA-nın İdarə Heyətinin sədri vurğulayıb.

# Ermənistan silahlı qüvvələri Naxçıvan istiqamətində mövqelərimizi atəşə tutublar

Sentyabrın 4-ü saat 09:50-də Ermənistan silahlı qüvvələrinin bölmələri Dəvəli rayonunun Arazdəyən yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atıcı silahlardan atəşə tutublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ordumuzun bölmələri tərəfindən cavab tədbirləri görülüb.

# Azərbaycanla İsrail dost və tərəfdaş ölkələrdir

**Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 4-də İsrail-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun üzvləri - Yevgeni Sova, Osher Şkalim, Tatiana Mazarski və Almoq Koheni qəbul edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan və İsrailin dost və tərəfdaş dövlətlər olduğu diqqətə çatdırılıb, ölkələrimiz arasındakı fəal siyasi dialoq, yüksək səviyyəli səfərlər və görüşlərin münasibətlərin inkişafında müstəsna rolu vurğulanıb. Eyni zamanda azərbaycanlılar və yəhudilərin əsrlər boyu sülh, dostluq və qarşılıqlı anlaşma şəraitində birgə yaşadığı qeyd edilib.

Görüşdə Azərbaycan və İsrail parlamentləri arasında əməkdaşlıq məsələləri də müzakirə olunub. Qanunverici orqanlar arasında münasibətlərin inkişafında dostluq qruplarının fəaliyyəti, parlament üzvlərinin qarşılıqlı səfərlərinin əhəmiyyəti diqqətə çatdırılıb.

*"Azərbaycan"*

# İsraildə səfirliyimizin açılması əməkdaşlığı yeni səviyyəyə yüksəldib

Sentyabrın 4-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri ilə İsrail parlamentinin Azərbaycanla dostluq qrupunun üzvləri arasında görüş keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov İsrail Knessetinin Azərbaycanla dostluq qrupunun üzvü Yevgeni Sovanın rəhbərlik etdiyi nümayəndə heyətini salamlayaraq, onları Azərbaycan parlamentində görməkdən məmnunluğunu bildirib. Komitə sədri ölkələrimiz arasında müxtəlif sahələrdə qurulan əlaqələrdən söz açaraq qeyd edib ki, Azərbaycanın İsraildə səfirliyinin açılması dövlətlərimiz arasında əməkdaşlığı keyfiyyətcə yeni səviyyəyə yüksəldib. O, dövlətlərimiz və xalqlarımız arasındakı yaxın münasibətləri yüksək qiymətləndirərək bir çox dinlərin və millətlərin vətəni olan Azərbaycanın yəhudilərin də ta qədimdən vətəni olduğunu vurğulayıb.

İsrail parlamentinin Azərbaycanla dostluq qrupunun üzvü Yevgeni Sova göstərilən qonaqpərvərliyə və səmimi münasibətə görə təşəkkür edib. O, ölkələrimizi birləşdirən bağlardan söz açaraq münasibətlərin dərinləşdirilməsi ilə bağlı fikirlərini bölüşüb.

Söhbət zamanı Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini Sevinc Fətəliyeva, deputatlar Asim Mollazadə, Nigar Arpadarai, Sevil Mikayılova və Nəsib Məhəməliyev, İsrail Knessetinin üzvləri Tatiana Mazarski, Osher Şkalim və Almoq Kohen qarşılıqlı hörmətə, hər iki ölkənin milli maraqlarına əsaslanan əməkdaşlığın və parlamentlərarası münasibətlərin inkişaf etdirilməsinin əhəmiyyətindən danışıblar.

Sonra görüşdə tərəfləri maraqlandıran məsələlər barədə fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Münasibətlər yüksələn xətlə inkişaf edir

Sentyabrın 4-də Milli Məclisin Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Anatoliy Rafailov və qrupun üzvləri ölkəmizdə səfərdə olan İsrail-Azərbaycan parlament dostluq qrupunun üzvü Yevgeni Sovanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Milli Məclisdə salamlamaqdan məmnunluğunu ifadə edən işçi qrupunun rəhbəri Anatoliy Rafailov Azərbaycanla İsrailin dost dövlətlər olduğunu, iki ölkə arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini söyləyib. O, 44 günlük Vətən müharibəsi zamanı İsrailin dəstəyini yüksək dəyərləndirib.

Qeyd olunub ki, ölkələrimiz arasında əlaqələr dərin tarixi köklərə malikdir. Yəhudi xalqının nümayəndələri Azərbaycanda, azərbaycanlılar isə İsraildə uzun illərdir mehriban dostluq şəraitində yaşayır və ictimai-siyasi həyatda fəal iştirak edirlər.

Görüşdə parlamentlər səviyyəsində əməkdaşlığın əhəmiyyəti qeyd edilərək, hər iki ölkənin parlamentlərində fəaliyyət göstərən işçi qruplarının fəaliyyəti, İsraildə Azərbaycan səfirliyinin açıldığının önəmi diqqətə çatdırılıb.

İsrail-Azərbaycan parlament dostluq qrupunun üzvü Yevgeni Sova qrup rəhbərinin salamlarını çatdırıb, Milli Məclisin Sədri Sahibə Qafarova ilə keçirilən görüş barədə təəssüratlarını bölüşüb. Səmimi görüşə görə təşəkkürünü bildirən qonaq ölkələrimiz və xalqlarımız arasında olan dostluq münasibətlərinin məmnunluq doğurduğunu qeyd edib, ölkəsinin müxtəlif sahələrdə Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu söyləyib.

Görüşdə iki ölkə arasında parlamentlərarası əlaqələrin, iqtisadi münasibətlərin inkişaf perspektivləri barədə danışılıb.

Söhbətdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Arzu Nağıyev, Jalə Əhmədova, Rasim Musabəyov, Elnur Allahverdiyev, Fatma Yıldırım və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# "Revival P" minatəmizləmə maşını Qarabağ Dirçəliş Fondu tərəfindən ANAMA-ya təqdim olunub

*Əvvəli 1-ci səh.*

Fonddan AZƏRTAC-a bildirilib ki, mərasimdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, QDF-nin Müşahidə Şurasının üzvü Rövşən Rzayev, Milli Məclisin deputatı, QDF-nin Müşahidə Şurasının üzvü Fatma Yıldırım, "İmprotex" Şirkətlər Qrupunun rəhbərliyi, fondun tərəfdaşları və donorları, eləcə də media nümayəndələri iştirak ediblər.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazandığı Qələbənin Cənubi Qafqazda yeni reallıqla yanaşı, ölkəmizin tarixində yeni quruculuq dövrünün başlamasına şərait yaratdığını qeyd edib.

Fondun fəaliyyətindən və həyata keçirdiyi layihələrdən danışan İdarə Heyətinin sədri QDF-nin donor və tərəfdaşları ilə əlaqələrinin günü-gündən inkişaf etdiyini və bu əməkdaşlıq çərçivəsində fonda pul vəsaiti ilə yanaşı, texniki vasitələrin də ianə edildiyini diqqətə çatdırıb. Rəhman Hacıyev "Revival P" minatəmizləmə maşınının Laçın şəhəri günündə QDF-yə ianə edilməsinin xüsusilə əlamətdar bir hadisə olduğunu vurğulayıb.

İdarə Heyətinin sədri əminliklə bildirib ki, QDF-yə ianə olunan minatəmizləmə maşını işğaldan azad olunan ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsinə, bununla da orada məskunlaşacaq soydaşlarımızın təhlükəsizliyinin təmin edilməsinə böyük töhfə verəcək.

R.Hacıyev fonda minatəmizləmə maşınının ianə edilməsində əməyi keçən hər kəsə təşəkkürünü bildirərək bunu təqdirəlayiq və örnək addım adlandırıb.

İşğaldan azad edilən ərazilərdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən aparılan minatəmizləmə əməliyyatları ilə bağlı tədbir iştirakçılarına məlumat verən agentliyin İdarə Heyətinin sədri Vüqar Süleymanov qısa zaman ərzində "Made in Azerbaijan" brendi altında istehsal olunan yerli minatəmizləmə maşınlarının həm yerli, həm də beynəlxalq auditoriyaya təqdim edilməsinin qürurverici olduğunu qeyd edib. Sədr bildirib ki, beynəlxalq standartlara cavab verən "Revival P" mexaniki minatəmizləmə maşını işğaldan azad edilmiş ərazilərdə ANAMA tərəfindən sınaqdan keçirilib və nəticələr yüksək qiymətləndirilib. Azad edilmiş ərazilərin təhlükəsizliyinin təmin edilməsində agentliyin insan resurslarının genişləndirilməsi ilə yanaşı, mexaniki minatəmizləmə maşınlarının sayının artırılmasının da vacibliyini vurğulayıb.

Çıxışlardan sonra Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin fəaliyyətinə, eləcə də "Revival P" minatəmizləmə maşınına həsr olunan videoçarxlar nümayiş olunub.

Sonra "Revival P" minatəmizləmə maşınının sertifikatı ANAMA-nın İdarə Heyətinin sədrinə təqdim edilib.

Tədbir iştirakçıları "Revival P" minatəmizləmə maşını ilə tanış olublar.

Xatırladaq ki, daha öncə də Qarabağ Dirçəliş Fonduna donorlar tərəfindən müxtəlif təyinatlı texnikalar ianə edilib. Hazırda həmin texnikalar işğaldan azad edilən ərazilərdə aparılan bərpa və quruculuq işlərində geniş istifadə olunur.

Qarabağ Dirçəliş Fondu işğaldan azad edilən ərazilərin bərpası üçün həm pul vəsaiti, həm də texnikalar ianə edən bütün tərəfdaşlarına təşəkkür edir və hər kəsi işğaldan azad edilən ərazilərdə aparılan bərpa və yenidənqurma işlərinin təşkili və sosial-iqtisadi rifahın yaxşılaşdırılması məsələsinə dəstək olmağa dəvət edir.

# Azərbaycan-Çin işgüzar əlaqələri genişlənir

## İqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyəti Çində bir sıra görüşlər keçirib



İqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Çin Xalq Respublikasına (ÇXR) səfər çərçivəsində bir sıra görüşlər keçirib.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Mikayıl Cabbarovun Çin Xalq Respublikasının kommersiya nazirinin müavini Linq Ci ilə görüşündə Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Çinlə fəal əməkdaşlıq etdiyi, Çinin ölkəmizin əsas ticarət tərəfdaşlarından biri olduğu və iki ölkə arasında ticarət, investisiya və nəqliyyat-tranzit sahələrində əməkdaşlıq əlaqələrinin durmadan inkişaf etdiyi diqqətə çatdırılıb. Tərəflərin məqsədi iqtisadi və ticarət əlaqələrini siyasi əlaqələrimizlə eyni səviyyəyə çatdırmaqdan ibarətdir.

İqtisadiyyat naziri bildirib ki, Azərbaycanın Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə qoşulmasında fəal mövqeyi dəniz ticarət limanlarının, magistral yolların və hava limanlarının tikintisi də daxil olmaqla infrastrukturun inkişafına əhəmiyyətli investisiyaların qoyulmasına səbəb olub. Orta Dəhlizin potensialından istifadə edən Azərbaycan, Çin və Avropa arasında malların daşınmasını gücləndirir. Bununla belə, ticarət əlaqələrinin genişləndirilməsi üçün nəqliyyat marşrutlarının optimallaşdırılmasına ehtiyac var. Ölkələrimizin Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində (ŞƏT) tərəfdaşlığı da qarşılıqlı fayda gətirir.

Buna baxmayaraq, iki ölkə arasında alternativ və bərpa olunan enerji, yüksək texnologiyalar, rəqəmsal iqtisadiyyat, istehsal və elektron ticarət kimi sahələrlə yanaşı, SOCAR-la Çinin enerji sektorunda fəaliyyət göstərən şirkətlərin birgə fəaliyyəti üçün böyük potensial və perspektivlər mövcuddur. Həmçinin çinli investorlar beynəlxalq dəhlizlərin kəsişməsində yerləşən Ələt Azad İqtisadi Zonasının nəqliyyat və logistika imkanlarından yararlana bilərlər.

Görüşdə həmçinin Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Dövlət Başçıları Şurasının 22-ci iclası çərçivəsində Səmərqənddə keçirilən görüşdə əldə olunmuş mühüm razılaşmaların həyata keçirilməsinə dair fikir mübadiləsi aparılıb, Azərbaycan və Çin arasında ticarət-investisiya əlaqələrinin inkişafı, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinə xidmət edən tədbirlər müzakirə olunub.

Diqqətə çatdırılıb ki, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Çin Xalq Respublikasının Milli İnkişaf və İslahat Komissiyası arasında istehsal gücləri və investisiya əməkdaşlığının gücləndirilməsi haqqında Çərçivə Sazişi"nin imzalanması da öz növbəsində iki ölkə arasında iqtisadiyyatın müxtəlif sahələri ilə yanaşı, ticarət əlaqələrinin inkişafına da müsbət töhfə verəcək.

Nazir müavini Linq Ci bildirib ki, Çin şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyəti məmnunluq doğurur və Çin şirkətləri Azərbaycanın biznes və investisiya mühitini dəyərləndirərək tərəfdaşlığı dərinləşdirməkdə maraqlıdırlar.

Nazir müavini qeyd edib ki, 2022-ci ilin əvvəlindən etibarən Azərbaycanın onlayn ticarət evi Çinin e-ticarət landşaftının tanınmış platforması JD.com-da fəaliyyətə başlayıb. Azərbaycan məhsullarının bu platformada təmsil olunması Azərbaycan məhsullarının Çin istehlakçılarına çatmasında və daha çox tanıdılmasında əhəmiyyətli olacaqdır.

Tərəflər ikitərəfli iqtisadi əlaqələrin gücləndirilməsi üçün mövcud imkanlar, investisiya qoyuluşu sahəsində əməkdaşlığın genişləndirilməsi və infrastruktur layihələri çərçivəsində qarşılıqlı fəaliyyətin təşviqi barədə fikir mübadiləsi aparıblar.

ÇXR-in sənaye və informasiya texnologiyaları nazirinin müavini Sin Quobin ilə görüşdə Çinin aparıcı şirkətləri ilə işgüzar dialoqun genişlənməsinin önəmi qeyd edilib, Azərbaycanın əlverişli biznes və investisiya mühiti, sərmayədarlar üçün yaradılan imkanlar, ölkəmizdə alternativ və bərpa olunan enerji sahəsində reallaşdırılan və perspektiv layihələr barədə məlumat verilib.

Azərbaycan və Çin arasında sənaye sahəsində investisiya əlaqələrinin hazırkı vəziyyəti, o cümlədən qeyd olunan sahədə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsini təmin etmək üçün həyata keçirilə biləcək potensial tədbirlər barədə fikir mübadiləsi aparılıb. Vurğulanıb ki, gəmiqayırma, bərpa olunan enerji, o cümlədən külək və günəş enerjisinin istehsalı üçün lokallaşdırma, şəhər infrastrukturunun qurulması kimi sahələrdə birgə layihələrin reallaşdırılması üçün potensial var və bu istiqamətdə işlər davam etdirilir.

Bundan başqa, sənaye sahələrinin modernləşdirilməsinin əhəmiyyəti və Çinin bu sahədə qabaqcıl təcrübəsi nəzərə alınaraq bu sahələrdə də birgə layihələrin həyata keçirilməsi və qarşılıqlı təcrübə mübadiləsi üçün imkanları genişdir.

Görüşdə Dördüncü Sənaye İnqilabı texnologiyalarının tətbiqi, iqtisadiyyatın rəqəmsallaşdırılması sahəsində əməkdaşlıq imkanları və digər potensial layihələr barədə müzakirələr aparılıb.

İqtisadiyyat naziri Çinə səfər çərçivəsində "Envision Energy" şirkətinin vitse-prezidenti Con Li ilə də görüşüb. Görüşdə Çinin işgüzar dairələri ilə əlaqələrin genişləndiyi vurğulanıb, Azərbaycanın biznes və investisiya mühiti, sərmayədarlar üçün yaradılan imkanlar qeyd olunub. Diqqətə çatdırılıb ki, enerji səmərəliliyi sahəsində ən mütərəqqi alətlərin tətbiqi, alternativ enerji sahəsinin inkişaf etdirilməsi iqtisadi artımın davamlılığının təmin edilməsində vacib məsələlərdəndir. Azərbaycanda bu istiqamət üzrə ixtisaslaşan müəssisələrin fəaliyyətini təmin etmək məqsədilə tərəfdaşlıq üçün geniş imkanlar var.

Tərəflər alternativ enerji sahəsində yeni texnologiyaların tətbiqi, müvafiq avadanlıqlarla təchizat, sıfır emissiyalı sənaye parkının yaradılması məqsədilə əməkdaşlıq qurulmasını müzakirə ediblər.

Sentyabrın 4-də Pekin şəhərində CIFTIS sərgisi çərçivəsində təşkil olunan "Summit Forum on China's International Economic Cooperation - Going Global" tədbirində çıxış edən iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov ölkəmizin iqtisadi uğurları barədə məlumat verib. Bildirilib ki, qlobal iqtisadi böhran nəticəsində tədarük zəncirlərindəki çətinliklərə və digər uğursuzluqlara baxmayaraq, Azərbaycan iqtisadiyyatı davamlı inkişaf edib. 2022-ci ildə Azərbaycanda real ÜDM-də 4,6 faiz, qeyri-neft ÜDM-də isə təsirli 9,1 faiz artım müşahidə olunub. 1995-ci ildən 2022-ci ilə qədər ölkəmizə 320 milyard ABŞ dollarından çox investisiya yatırılıb ki, bunun da yarısından çoxu xarici investisiyalardır.

Qeyd edilib ki, 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə Azərbaycanın təşəbbüsü ilə Çin və Avropanı birləşdirən Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi formalaşıb.

Nazir müavini bildirib ki, Orta Dəhliz yalnız ölkələrimiz üçün deyil, regiondakı digər dövlətlərin də iqtisadi maraqlarını əks etdirən irihəcmli nəqliyyat layihəsidir. Bu gün Azərbaycan Orta Dəhlizin reallaşmasına töhfə verən əsas ölkələrdəndir. Sözügedən marşrut isə Asiya və Avropanı birləşdirən vacib nəqliyyat dəhlizlərindən birinə çevrilmək üzrədir. Qeyd edilib ki, Avropa ilə Çin arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası kimi önəmli infrastruktur layihələri bu qlobal təşəbbüs və ümumilikdə regional əməkdaşlıq üçün böyük əhəmiyyət daşıyır.

# Azərbaycan-Macarıstan strateji dialoqunun ilk iclası keçirilib

## Tərəflər ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq məsələlərini müzakirə ediblər

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Macarıstana rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər və ticarət naziri Piter Siyarto ilə görüşüb.

Azərbaycan Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov və nazir Piter Siyarto arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib, Azərbaycan-Macarıstan strateji dialoqunun ilk iclası keçirilib.

Görüş zamanı Azərbaycan-Macarıstan arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq məsələləri, habelə regional məsələlər barədə fikir mübadiləsi aparılıb. Əlaqələrimizin inkişafında ali və yüksək səviyyəli qarşılıqlı səfərlərin və siyasi dialoqun əhəmiyyəti və rolu qeyd olunub. Macarıstan ilə iqtisadiyyat, ticarət, əczaçılıq, mədəniyyət, təhsil, idman və sair istiqamətlərdə müvafiq əməkdaşlığın daha da genişləndirilməsi imkanları müzakirə olunub. Xüsusilə enerji sahəsindəki tərəfdaşlığın əlaqələrdə əsas rol oynadığı vurğulanıb, nəqliyyat və logistika kimi istiqamətlərin əməkdaşlığa əlavə töhfə verəcəyi diqqətə çatdırılıb.



Görüşdə nazir Ceyhun Bayramov tərəfindən postmünaqişə dövründə mövcud regional vəziyyət və reallıqlar, Azərbaycan tərəfindən Ermənistan ilə münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması, bölgədə nəqliyyat və kommunikasiyaların açılması, eləcə də sərhədlərin delimitasiyası istiqamətində göstərilən səylər barədə qarşı tərəfə ətraflı məlumat verilib.

Ermənistanın davamlı qeyri-konstruktiv yanaşma sərgilədiyi, hərbi-siyasi təxribatlar törətdiyi, öhdəliklərindən boyun qaçırdığı, Laçın sərhəd nəzarət-buraxılış məntəqəsi təsis edilənədək Laçın yolundan hərbi və mina təhdidinin davam etdirilməsi üçün sui-istifadə olunduğu bildirilib. Ermənistanın hələ də işğalçı qüvvələrini tam olaraq ölkəmizin ərazilərindən çıxarmadığı vurğulanıb.

Azərbaycan tərəfinin təşəbbüskarı olduğu sülh gündəliyi, bu çərçivədə ölkəmizin konstruktiv yanaşması və müvafiq səyləri müqabilində Ermənistanın ziddiyyətli və təxribatçı mövqeyi haqqında müqabil tərəfə məlumat verilib.

Xüsusilə Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası səylərinə Ermənistanın hər vəchlə maneçilik törətməsi, Laçın-Xankəndi yolu ətrafında yalan iddialar yayması qeyd olunub. Laçın yolundan gündəlik əsasda erməni sakinlərin keçdiyi, əraziyə böyükhəcmli yüklərin daşınması üçün isə Ağdam-Xankəndi yolundan istifadənin Azərbaycan tərəfindən təklif olunduğu xatırlanıb.

Görüş zamanı həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirdiyi genişmiqyaslı yenidənqurma işləri barədə fikir mübadiləsi aparılıb və bu prosesdə Macarıstanın göstərdiyi marağa görə qarşı tərəfə minnətdarlıq ifadə olunub. Daha sonra iki nazir Azərbaycan-Macarıstan strateji dialoqunun birinci iclasının protokolunu imzalayıb.

Mətbuat brifinqində nazirlər görüşün nəticələrinə dair bəyanatlarla çıxış edib, jurnalistlərin suallarını cavablandırıblar.

# Rusiya və Türkiyə prezidentlərinin Soçi görüşündə Cənubi Qafqazda vəziyyət də müzakirə olunub



Soçidə Rusiya Prezidenti Vladimir Putin ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında danışıqların yekunlarına dair mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, Rusiya Prezidenti mətbuat konfransındakı çıxışında Soçi danışıqlarının konstruktiv keçdiyini vurğulayıb. Vladimir Putin deyib ki, danışıqlar çərçivəsində milli valyutalardan istifadə olunması, energetika sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib. Rusiya Prezidenti xatırladıb ki, "Akkuyu" Atom Elektrik Stansiyasının tikintisi ilə Türkiyə nüvə dövlətləri sırasına daxil olub.

Dövlət başçısı əlavə edib ki, Rusiya bundan sonra da Türkiyəni qazla təmin etmək və Türkiyə vasitəsilə üçüncü ölkələrə qaz ixrac etmək niyyətindədir. Türkiyədə qaz qovşağının qurulması üçün işçi qrupunun yaradılması nəzərdə tutulub.

Tərəflər turizm, kənd təsərrüfatı sahələrində də əməkdaşlığı müzakirə ediblər. Taxıl müqaviləsinin bərpası məsələsinə toxunan Vladimir Putin bildirib ki, Rusiyanın şərtləri yerinə yetirildikdən sonra ölkəsi taxıl müqaviləsinə qayıtmağa hazırdır. Türkiyə Rusiyanın yaxın tərəfdaşıdır və bu ölkədə taxıl emalı imkanları böyükdür. Rusiya kənd təsərrüfatı məhsullarının ixracına məhdudiyyət aradan götürüləndən sonra Qətərin dəstəyi və Türkiyə vasitəsilə Afrikanın altı ölkəsinə taxıl ixracına hazırdır.

Vladimir Putin Rusiya və Türkiyənin Suriyanın suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşdığını və bu ölkənin müqəddəratının öz xalqı tərəfindən müəyyən ediləcəyini bildirib. Rusiya Prezidenti əməkdaşlığa görə Rəcəb Tayyib Ərdoğana minnətdarlığını bildirib.

Görüşdə Suriyada və Cənubi Qafqazda vəziyyətin müzakirə olunduğunu vurğulayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiyanın Şimali Kiprdə ofis açmasından məmnunluğunu ifadə edib. Prezident deyib ki, Türkiyə regionda sülhə nail olunması üçün bundan sonra da səylərini davam etdirəcək, Rusiya-Ukrayna münaqişəsinin həllinə öz töhfəsini verəcək.

Rəcəb Tayyib Ərdoğan Türkiyənin Rusiya ilə sıx əlaqələrinin bundan sonra da regional problemlərin həllinə töhfə verəcəyini deyib.

# Ceyhun Bayramov Azərbaycanın erməniəsilli vətəndaşlarının inteqrasiyasında qətiyyətli olduğunu bildirib

Sentyabrın 4-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Macarıstana rəsmi səfəri çərçivəsində Macarıstan diplomatik nümayəndəlik rəhbərlərinin illik konfransında çıxış edib, Azərbaycan-Macarıstan münasibətləri, bölgəmizdə cari vəziyyət, enerji təhlükəsizliyi, nəqliyyat dəhlizlərinin şaxələndirilməsi, Azərbaycan-Ermənistan arasında postmünaqişə normallaşma prosesi barədə çoxsaylı sualları cavablandırıb.




XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov ötən il diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edən, möhkəm dostluğa, ümumi dəyər və maraqlara, habelə çoxşaxəli əməkdaşlığa əsaslanan Azərbaycan-Macarıstan münasibətlərinin bu gün sürətlə inkişaf edərək çoxölçülü strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini və bir çox cəhətdən nümunəvi olduğunu qeyd edib. Səfər çərçivəsində Azərbaycan-Macarıstan Strateji Dialoqunun ilk iclasının keçirilməsini məmnunluqla vurğulayıb.

Yüksək səviyyəli siyasi dialoqun iqtisadi əməkdaşlığımızın inkişafı üçün əlverişli baza yaratdığını, İqtisadi Əməkdaşlıq üzrə Birgə Komissiyanın mütəmadi iclaslarının iqtisadiyyat, enerji, ticarət və investisiyalar sahələrində əməkdaşlığın daha da genişləndirilməsi baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirib. Bir sıra Macarıstan şirkətlərinin ölkəmizdə fəal fəaliyyətini təqdir edən nazir Ceyhun Bayramov həmçinin digər sektorlarda, o cümlədən turizm, əczaçılıq və s. sahələrdə ikitərəfli iqtisadi əlaqələrimizin genişləndiyini diqqətə çatdırıb.

Azərbaycanın regional miqyasda əməkdaşlıq əlaqələrinin gücləndirilməsinə böyük əhəmiyyət verdiyi, bu çərçivədə ölkəmizin digər platformalarla yanaşı, Avropa İttifaqı (Aİ) ilə siyasi əməkdaşlıq, regional təhlükəsizlik, enerji tərəfdaşlığı, eləcə də bağlantı və sektor məsələləri daxil olmaqla qarşılıqlı maraq doğuran məsələlər üzrə dialoq apardığı bildirilib. Macarıstanın 2024-cü ilin II yarısında Aİ Şurasında sədrliyi dövründə Azərbaycan-Aİ əməkdaşlığına, o cümlədən Azərbaycan ilə Aİ arasında Strateji Tərəfdaşlıq haqqında Saziş layihəsi üzrə aparılan danışıqlara dəyərli töhfə verəcəyinə əminlik ifadə olunub.

Həmçinin Ukraynadakı müharibədən sonrakı regional geosiyasi vəziyyət fonunda Mərkəzi Asiyadan Xəzər dənizi və daha sonra ölkəmizdən keçən nəqliyyat marşrutlarının aktuallığından söz açan nazir ölkəmizin nəqliyyat infrastrukturunun şaxələndirilməsinin və modernləşdirilməsinin əhəmiyyətini vurğulayıb. Ölkəmizin nəqliyyat infrastrukturuna böyük sərmayə qoyduğunu, Avropa ilə Asiya arasında ticarət və logistikanı gücləndirmək üçün bir sıra nəqliyyat infrastrukturu layihələrinin, o cümlədən əlverişli və təhlükəsiz alternativ olan Orta Dəhliz-Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun vacibliyini qeyd edib. Bu xüsusda Orta Dəhliz daxilində daha da yaxşı əlaqəni artırmaq potensialına malik Zəngəzur dəhlizinin əhəmiyyətindən söz açılıb.

Ermənistanın Azərbaycana qarşı təcavüzü, Vətən müharibəsi, normallaşma gündəliyi barədə konfrans iştirakçıları məlumatlandırılıb. Nazir Ermənistanın öhdəliklərə zidd və dövlətlərarası normallaşma üçün əsas maneə olan Azərbaycanın suveren ərazilərində qeyri-qanuni hərbi mövcudluğunu davam etdirməsindən, davamlı hərbi təxribatlar, o cümlədən mina təhlükəsi, daxili işlərimizə daimi müdaxiləsindən, Azərbaycanın mərkəzi hakimiyyət orqanları ilə erməniəsilli yerli sakinlər arasında dialoqa maneçilik törətməsindən, beynəlxalq səviyyədə aparılan genişmiqyaslı qarayaxma kampaniyasından bəhs edib. Macarıstanın istər münaqişə zamanı, istərsə də ondan sonra Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə verdiyi dəstək yüksək qiymətləndirilib.

Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməniəsilli vətəndaşlarını öz siyasi, sosial, iqtisadi məkanına inteqrasiya etməkdə qətiyyətli olduğu, postmünaqişə dövründə misli görünməmiş bərpa və yenidənqurma işlərinə başladığı bildirilərək, bu kontekstdə işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması prosesində Azərbaycana dəstək verməyə hazır olduqları üçün macar dostlara minnətdarlıq ifadə olunub.

# Müzəffər Ali Baş Komandanın təltif etdiyi hərbi qulluqçulara orden və medallar təqdim edilib

Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi hissələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması, dövlət sərhədlərinin mühafizəsi və müdafiəsi zamanı xüsusilə fərqləndiklərinə görə və Azərbaycan Sərhəd Mühafizəsinin 104-cü ildönümü münasibətilə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev tərəfindən təltif olunmuş hərbi qulluqçulara orden və medallar qurumun rəisi general-polkovnik Elçin Quliyev tərəfindən təqdim edilib.

Bu barədə AZƏRTAC-a DSX-nin Mətbuat mərkəzindən məlumat verilib. Bu münasibətlə təşkil olunmuş təntənəli mərasimlərdə Azərbaycan sərhədçilərinin istənilən döyüş tapşırığını bundan sonra da şərəflə yerinə yetirəcəklərinə, müqəddəs torpaqlarımızın müdafiəsini və mühafizəsini böyük əzm və fədakarlıqla təmin edəcəklərinə, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin əmrlərini ən yüksək səviyyədə icra edəcəklərinə əminlik ifadə olunub.

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev hərbi hissələrin yaşayış şəhərciklərinə baxış keçirib və hərbi qulluqçular üçün yaradılmış şəraitlə tanış olub.

# Amerika və Avropanın aparıcı ravvinləri Azərbaycanın iblisləşdirilməsi və erməni təbliğatçılarının Holokost mövzusundan istifadəsinə qarşı çıxırlar

Bu ilin may ayından etibarən İsraildəki ermənipərəst fəallar ABŞ-nin erməni təşkilatlarından aldıqları vəsaitlər hesabına İsrail və yəhudi-amerikan KİV-lərində sol liberal yönümlü materiallar yayaraq, onları Azərbaycana dəstəkdən əl çəkməyə çağırıblar.

AZƏRTAC xəbər verir ki, onlar əsas arqument kimi Holokost soyqırımından sağ çıxan yəhudilərin indi guya Qarabağda ermənilərin "soyqırımına şərik" olmaları tezisini irəli sürüblər. Beləliklə, Azərbaycanla hərbi-strateji tərəfdaşlıqdan imtinaya məcbur etmək məqsədilə İsrail rəhbərliyinə təzyiq etməyə cəhd edilir.

Lakin bu çirkin kampaniyanın təşkilatçılarının İsrail rəhbərliyinə real təsir rıçaqları yoxdur. İsraildə daha çox rezonans doğuran dünyanın hər yerindən olan ravvinlərin İsrail, Amerika, Fransa və digər ölkələrin mediasında çıxış edərək, Ermənistan rəhbərliyini Azərbaycanın iblisləşdirilməsi və təbliğat məqsədləri üçün Holokostun rüsvayçı istismarını qınayan cavab kampaniyası oldu.

Dünyanın əksər ölkələrindən olan bir çox tanınmış ravvinlər Azərbaycanın iblisləşdirilməsinə və erməni təbliğatının Holokost mövzusundan istifadəsinə qarşı çıxış edib, bütün İsrailin on minlərlə sinaqoqlarında bu cür bəyanatlarla qətiyyən razılaşmayan ravvinlərin çıxışları elan olunub.

Almaniyanın Saksoniya əyalətindən olan ravvin Jolt Balla öz şəxsi feysbuk səhifəsində dünyanın hər yerindən nüfuzlu ravvinlərin Azərbaycanın gözdən salınması və erməni təbliğatı tərəfindən Holokost mövzusundan istifadə edilməsinə qarşı kampaniyasını dəstəkləyərək yazır: "Mən həmkarlarıma qoşuluram və onların fikirlərini bölüşürəm..."

İsrailin ən böyük rusdilli nəşri "Vesti"nin qeyd etdiyi kimi, Amerika və Avropanın 18 aparıcı ravvini də Azərbaycanı dəstəkləyib. Məqalədə deyilir: "Beləliklə, onlar Bakı ravvini Zamir İsayevin Azərbaycanın "Qarabağda erməni soyqırımı" ilə bağlı ittihamlarının uydurma olduğunu sübut edən sənədli sübutları təqdim edən videomüraciətinə cavab veriblər".

Latın Amerikasındakı yəhudi diasporunun əsas media orqanlarından biri olan Argentinanın "Visaviss" internet nəşri də Bakı ravvini İsayevin dünya yəhudilərini Azərbaycanın iblisləşdirilməsinə və erməni təbliğatının Holokost mövzusundan istifadəsinə qarşı çıxmağa çağıran müraciətini dərc edib. Məqalədə Qarabağda ermənilərin "soyqırımı" ilə bağlı rəsmi Bakıya qarşı ittihamlar "böhtan kampaniyası" adlandırılıb.





Azərbaycanın iblisləşdirilməsinə və erməni təbliğatı tərəfindən Holokost mövzusunun istifadəsinə qarşı müraciətə Latın Amerikası Ravvinlər Konfransının təsisçisi, Argentina-İsrail Qarşılıqlı Yardım Assosiasiyasının (AMIA) prezidenti və Avropa Ravvinlər Konfransının üzvü Eliyaxu Hamara, Panamanın Baş ravvini David Peretz, Çilidəki Sefard icmasının ravvini Eliyaxu Tamim də qoşulublar.

Bu il avqustun 25-də Bakı ravvini Zamir İsayev özünün feysbuk səhifəsində ivrit və ingilis dillərində dünya yəhudilərinə videomüraciət yerləşdirib və son iki gündə əsas yəhudi dini mediası bu mesajın mətnini dərc etməklə yanaşı, həm də ona dəstək verib.

Bütün dünya ravvinlərinin erməni təbliğatını pislədiyini vurğulayan İsrailin ingilis dilində ən nüfuzlu nəşri olan "The Jerusalem Post" yazır: "Azərbaycan yəhudi icması... yəhudi rəhbərliyinə müraciət edir ki, İranın müttəfiqləri tərəfindən Holokostdan Qarabağ regionunda davam edən böhranla əlaqədar istifadəni pisləsin". "The Jerusalem Post" bildirir ki, bu müraciət artıq dünyanın bir çox nüfuzlu ravvinləri tərəfindən dəstəklənib.

Analoji yazılar avqustun 27-28-də İsrail və Fransanın, digər ölkələrin dini yəhudi nəşrlərində - "Israel National News", INN, "Actualic", həmçinin "Shaharit", "Kountrass" qəzetlərində dərc edilib.

İsrailin "Kikar" dini nəşri yazır: "Ermənistanın İranın himayəsi altında həyata keçirdiyi Azərbaycanı qaralamaq üzrə beynəlxalq kampaniya bütün dünyada nüfuzlu ravvinlərin hiddətinə səbəb olub".

Ukraynadakı Odessa yəhudi dini icmasının rəhbəri Şlomo Bakşt özünün feysbuk səhifəsində Bakı ravvini Zamir İsayevin "The Jerusalem Post"da dərc edilmiş dünyadakı yəhudiləri Azərbaycanı qaralamağa və erməni təbliğatının Holokost mövzusundan istifadəsinə qarşı çıxmağa çağıran müraciətinin linkini yerləşdirib. "İstənilən "müqayisə" Holokost müqəddəslərinin (qurbanlarının) xatirəsinə təhqirdir", - deyə Bakşt İsayevin müraciətində sitat gətirdiyi erməni "xadimləri"nin bəyanatlarına cavab olaraq yazıb: "Ermənistanın baş naziri Paşinyan AFP-yə müsahibəsində azərbaycanlıları anklavda "əsl getto" yaratmaqda ittiham edib və guya bu, "növbəti Holokosta hazırlıqdır". Separatçıların nümayəndəsi Vardanyan hətta bəyan edib ki, "ermənilərin iztirabları Holokost qurbanlarının çəkdiyi əzablardan daha çoxdur..."

İsrailin dini nəşri "Matzav Ha-Ruah" yazır: "Ermənistan hökumətinin başçısı Paşinyanın dediyi kimi, Azərbaycan hakimiyyətinin "daha bir Holokosta hazırlıq" məqsədilə Qarabağın erməni sakinləri üçün "əsl getto" yaratması ilə bağlı ittihamları bütün dünyada ravvinlərin qəzəbli qınaq dalğasına səbəb oldu ..."

Ötən həftənin sonunda - cümə və şənbə günləri qəzetin bu buraxılışı bütün İsraildə səksən sinaqoqa pulsuz paylanılıb.



# Güzəşt olmayacaq

## İlham Əliyevin şərtləri qəbul edilməyənə qədər Ermənistanla sülh sazişi imzalanmayacaq

"İndi sülh bizim gündəliyimizdədir. Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq. Çünki bizim Ermənistana qarşı hər hansı bir ərazi iddiamız yoxdur. Biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik. Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıların nəzarəti altında olan ərazidə yaşayan insanlar Azərbaycanda yaşayırlar. Onlar ölkəmizdəki digər çoxsaylı milli azlıqlar kimi Azərbaycan vətəndaşları olaraq yaşayacaqlarına və ya Azərbaycanı tərk edəcəklərinə dair seçim etməlidirlər. Bu onların seçimidir. Biz bunu onların buranı tərk etməsini istədiyimizə və ya Ermənistanın bizi etnik təmizləmə siyasəti aparmaqda günahlandırdığına görə etmirik. Biz onlara seçim hüququ veririk".

İkinci Qarabağ müharibəsindən sonra regionda davamlı təhlükəsizliyin təmin olunması üçün Ermənistana sülh müqaviləsi təklif edən İlham Əliyev bütün müsahibələrində, çıxışlarında bir daha göstərir ki, mövqeyində heç bir dəyişiklik yoxdur. Bu, hər zaman olduğu kimi Azərbaycan Prezidentinin sözünün imzası qədər keçərli olduğunun, dilə gətirdiyi istənilən fikrə sadiqliyinin əyani təzahürüdür.

Son aylarda məğlub Hayastanın siyasi şantajlarına, beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün həyata keçirdiyi manipulyasiyalara, hərbi təxribata baxmayaraq, Azərbaycanın qətiyyətli lideri həm bu ölkənin rəhbərliyinə doğru istiqaməti, həm də Qarabağ ermənilərinə xilas yolunu göstərir. Amma Nikol Paşinyanın son sərsəmləmələri göstərir ki, bu şəxs Ermənistanın əvvəlki rəhbərləri kimi ikiüzlü siyasət həyata keçirir. Həm Rusiya, həm də Avropa İttifaqı Şurasının vasitəçiliyi ilə sülh müqaviləsinin imzalanması istiqamətində keçirilən görüşlərdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edən erməni baş nazirin ölkəsinə qayıdarkən tamam fərqli iddialar səsləndirməsi deyilən fikri bir daha təsdiqləyir.

Həftəsonu Paşinyanın İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində bir daha sülh danışıqlarına xələl gətirəcək iddialar səsləndirməsi bu ölkənin barış üçün irəli addım atmaq fikrində olmadığını nümayiş etdirib. Baş nazirin sərsəm fikrinə diqqət edək: "Söhbət tamamilə fərqli bir şeydən gedir. Əgər Ermənistan və Azərbaycan Almatı Bəyannaməsinə əsaslanaraq bir-birinin ərazi bütövlüyünü qarşılıqlı şəkildə tanımazsa, bu, heç vaxt sülhün olmayacağı anlamına gəlir". Bu, açıq-aşkar onun 2020-ci ildə "Qarabağ Ermənistandır və nöqtə" sərsəmlənməsinin davamına bənzəyir. Paşinyanın bu cəfəng fikrindən sonra İlham Əliyev ona həm siyasi, həm də hərbi yolla başa saldı ki, "Qarabağ Azərbaycandır!" Brüssel danışıqları zamanı tərəflərin Almatı Bəyannaməsinə sadiqliklərini bir daha təsdiqləmələri ilə Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını etiraf etdi.

İlham Əliyev də bəyan etdi ki, əgər Azərbaycan Ermənistan tərəfindən konstruktiv yanaşma görsə, yəni məğlub ölkə ərazi bütövlüyümüzü mübahisələndirən bütün iddialarını kənara qoysa, onda sülh variantını tapmaq asan olacaq.

Amma Hayastan yenə də iddialarından ək çəkmədi. Təxribatlarından əl çəkmədi, Azərbaycanı "humanitar fəlakət" yaratmaqda ittiham etdi və separatçılara daim dəstək oldu. Paşinyanın son fikirləri isə onun Azərbaycanın ərazi bütövlüyünü tanıması ilə bağlı dediklərinin cəfəngiyyat olduğunu və nəticə etibarilə onun ikiüzlülüyünü aydın göstərdi.

Ümumiyyətlə, Ermənistanda və Qarabağda erməni separatçılarının hələ də qaldığı ərazilərdə gedən proseslər və son dəyişikliklər Koçaryan-Sarkisyan hərbi xuntasının gücləndiyini və onlara bağlı qruplaşmaların aktivləşərək mövqelər əldə etdiyini göstərir.

Araik Arutunyan Koçaryan-Sarkisyan qruplaşması ilə bağlı olsa da, zəif şəxs idi. Hazırda qondarma qurumun "rəhbərliyinə" gətirilənlər radikal mövqeləri ilə seçilirlər. Proseslər göstərir ki, haylar Arkadi Qukasyan və Bako Saakyan xəttini davam etdirməyə çalışırlar. Bu, həmin qrupdur ki, Paşinyanın Azərbaycanla sülh müqaviləsi imzalamasına, Brüssel prosesinin inkişafına mane olur. Qarabağdakı hazırkı gərginliyin səbəbkarı məhz onlardır. Həmin qrup yolların açılmasını da sabotaj edir.

Proseslər göstərir ki, Ermənistanda hakimiyyət çevrilişinə hazırlıq gedir. Müharibə istəməyən xalq Nikol Paşinyanın ikiüzlülük siyasətinə şahidlik edir. Ermənistanda hesab edirlər ki, baş nazir atdığı son addımlarla bir daha göstərir ki, o da Köçəryan-Sarkisyan hərbi xuntasının yolunu gedir. Bu yol isə Hayastanı daha acınacaqlı vəziyyətə doğru aparır. Bu "siyasət" ermənilərə heç nə vəd etmir. Bu gün sadə ermənilər dərk edirlər ki, təxribat və ya yenidən baş verə biləcək hərbi toqquşma, müharibə onları xilas edə bilməyəcək. Sülh müqaviləsi yeganə çıxış yoludur.

Müharibənin qalib tərəfi olmasına rəğmən, Azərbaycan məğlub ölkəyə qurtuluş yolu, hər iki tərəfi qane edəcək sülh modeli təklif edir. Hayastana bəlli olmalıdır ki, boş yerə Qarabağın erməni əhalisi üçün ayrıca "status" iddiasını irəli sürməyin heç bir mənası yoxdur.

Elə İlham Əliyev də bunu dəfələrlə onlara xatırladıb. Qalib komandan qəti şəkildə bəyan edib ki, "miatsum"un, separatizmin kitabı bağlanıb, müstəqillik xülyası da statusun dalınca cəhənnəmə göndərilib. Bu gün ermənilərin yaşadıqları Qarabağ bölgəsi Azərbaycanın tarixi, hüquqi torpağıdır. Yaxşı olar ki, bu reallığı orada yaşayan erməniəsilli vətəndaşlar tezliklə başa düşsünlər və xam xəyallardan ayılaraq özləri gəlib Azərbaycan bayrağı altında yaşamaq üçün addım atsınlar. Ermənistan əhalisi də, Qarabağın erməniəsilli sakinləri də yaxşı bilirlər ki, İlham Əliyev nə deyirsə, onu mütləq gerçəkləşdirir. Qalib Ali Baş Komandan bunu müharibədən öncə də, sonra da nümayiş etdirdiyi siyasətlə sübuta yetirib. Əgər indi Azərbaycan Prezidenti ermənilərə hansısa şans, imkan verirsə, haylar mütləq bundan yararlanmalıdırlar. Çünki bölgədə yaranmış yeni reallıqlar fonunda Ermənistanın sərgilədiyi destruktiv davranışın nəinki heç bir perspektivi yoxdur, əksinə, bu mövqe erməni xalqını məhvə sürükləyir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İƏT-in nümayəndə heyəti Gəncədə faktaraşdırıcı missiya həyata keçirib





Ölkəmizdə səfərdə olan İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının (İƏT MDİHK) sədri Muhammad Laval Sulaimanın rəhbərlik etdiyi nümayəndə heyəti növbəti birgə faktaraşdırıcı missiyanı 44 günlük Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən raket hücumlarına məruz qalmış Gəncə şəhərində həyata keçirib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvləri müharibə dövründə beynəlxalq humanitar hüququn qaydalarına zidd olaraq yaşayış məntəqələrinin atəşə tutulması faktları ilə yerində tanış olublar. Nümayəndə heyətinin üzvləri Ermənistan silahlı qüvvələrinin raket hücumları nəticəsində zərər çəkmiş sakinlərlə görüşüblər. Qonaqlara İkinci Qarabağ müharibəsi zamanı qadağan olunmuş silahlardan istifadə etməklə Ermənistan tərəfindən mülki əhaliyə qarşı törədilmiş, çoxsaylı insan itkisi və ciddi dağıntılarla nəticələnən müharibə cinayətləri barədə məlumat verilib.

Daha sonra qonaqlar Ermənistan silahlı qüvvələrinin raket hücumları nəticəsində zərər dəymiş "İmamzadə" ziyarətgah kompleksində monitorinq aparıblar.

Nümayəndə heyətinin ölkəmizə səfəri davam edir.

# Bakıda "Qərbi Azərbaycanın etnomədəni mühitinə səyahət" adlı tədbir keçirilib



Sentyabrın 3-də Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzinin qarşısındakı parkda Qərbi Azərbaycanın etnomədəni mühitinin, habelə qeyri-maddi mədəni irsinin nümayiş etdirilməsi məqsədilə tədbir təşkil olunub.

AZƏRTAC xəbər verir ki, "Qərbi Azərbaycanın etnomədəni mühitinə səyahət" adlı tədbirdə Qərbi Azərbaycana məxsus milli geyim və mətbəx stendi, gündəlik həyatda istifadə olunmuş məişət əşyaları, tarixi abidələrin 3D maketləri nümayiş etdirilib.

Konsert proqramı ilə davam edən tədbirdə Vətənə, doğma yurda aid mahnılar səsləndirilib, Qərbi Azərbaycanın aşıq havaları ifa olunub.

Tədbirdə Milli Məclisin deputatları, media nümayəndələri, paytaxt sakinləri və xarici qonaqlar iştirak ediblər.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli AZƏRTAC-a açıqlamasında tədbirin önəmini xüsusi vurğulayaraq deyib: "Qərbi Azərbaycan İcması olaraq əsas məqsədimiz tarixi torpaqlarımızdakı Azərbaycan mədəni irs nümunələrinə sahib çıxmaq, bunu dünya ictimaiyyətinə çatdırmaqdır. Bu tədbir də həmin silsilədən atılan addımlardan biridir. Şübhəsiz ki, biz bu cür sərgilərin davamlı olmasını nəzərdə tuturuq. Sentyabrın sonuna qədər ölkədə bir neçə belə sərgi keçiriləcək. Belə sərgiləri xarici ölkələrdə də təşkil etməyi nəzərdə tutmuşuq. Qarşımızda Ermənistan kimi hər cür yalana, üsula əl atan düşmən dayanır. Biz onların qarşısına ancaq faktlarla, sənədlərlə, sübutlarla, mənbələrlə çıxmalıyıq ki, ermənilərin yüz illər ərzində dünya ictimaiyyətinin beyninə yeritdiyi yalanları, saxtakarlıqları qazıb çıxaraq və Qərbi Azərbaycan həqiqətlərini qəbul etdirə bilək".

Mədəniyyət nazirinin müavini Səadət Yusifova tədbirin məqsədinin Qərbi Azərbaycanın etnomədəni mühitinin rekonstruksiya edilməsi, o cümlədən vaxtilə həmin torpaqlarda, mahallarda, yaylaqlarda xalqın keçirdiyi bayram şənliklərinin əhvali-ruhiyyəsinin canlandırılması olduğunu vurğulayıb. Qeyd edib ki, bu tədbirin Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində onun adını daşıyan Heydər Əliyev Mərkəzinin qarşısında keçirilməsi də rəmzi xarakter daşıyır. Ümummilli Lider inanırdı ki, nə vaxtsa ədalət bərpa olunacaq və qərbi azərbaycanlılar öz yurdlarına qayıda biləcəklər.

Vətən müharibəsində qazanılan şanlı Qələbədən sonra keçmiş məcburi köçkünlərin Qarabağa, Şərqi Zəngəzura dönmək imkanı əldə etdiklərini diqqətə çatdıran nazir müavini bildirib: "Şanlı Qələbədən sonra qərbi azərbaycanlıların da öz ata-baba ocaqlarına qayıtmaq ümidi yaranıb. Dövlətimizin başçısının çıxışlarında qərbi azərbaycanlıların da öz yurdlarına qayıdacağını bildirməsi ümidlərin, xəyalların reallığa çevriləcəyi günün çox da uzaqda olmadığına bir işarədir. Həmin imkan sülh müqaviləsi imzalanandan sonra yaranacaq. Vaxt gələcək həmin doğma torpaqlara da qayıdacağıq, qurub-yaradacağıq və Azərbaycan mədəniyyətini çiçəkləndirəcəyik".

Qərbi Azərbaycan İcmasının sədr müavini, Milli Məclisin deputatı Hikmət Babaoğlu xüsusilə indiki dövrdə bu sərginin təşkilinin önəmli olduğunu qeyd edib: "Qərbi Azərbaycanın etnomədəni mühitini əks etdirən sərgidə təqdim olunan maddi mədəniyyət nümunələri bir daha onu göstərir ki, Qərbi Azərbaycan xalqımızın milli-mədəni inkişafının formalaşdığı coğrafiyalardan biridir. Qərbi azərbaycanlıların ermənilər tərəfindən soyqırımına, etnik təmizləmə siyasətinə məruz qalmasına baxmayaraq, bu gün yenidən böyük coşqu ilə öz hüquqlarını tələb etmələri məhz bu mədəniyyətdən, tariximizdən və milli yaddaşımızdan aldığımız güclə əlaqədardır. BMT və digər beynəlxalq təşkilatlar, strukturlar qərbi azərbaycanlıların müraciət və çağırışlarını cavabsız qoymurlar. Gec-tez Paşinyan da qərbi azərbaycanlıların çağırışlarına cavab vermək məcburiyyətində qalacaq. Qərbi azərbaycanlılar ləyaqətlə doğma torpaqlarına qayıdaraq tarixən yaratdıqları bu mədəniyyəti yenə də öz torpaqlarında inkişaf etdirəcəklər".

Qeyd edək ki, qərbi azərbaycanlıların onilliklərlə pozulmuş hüquqlarının bərpası, onların tarixi yurdlarına qayıtmaları istiqamətində hazırda yüksək səviyyəli sistemli iş həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ötən il dekabrın 24-də - doğum günündə məhz Qərbi Azərbaycandan olan ziyalıların bir qrupu ilə icmanın qərargahında görüşməsi və çox vacib mesajlar verməsi bu istiqamətdə işlərin daha mütəşəkkil və ardıcıl şəkildə reallaşdırılmasını təmin etdi. Qərbi Azərbaycandan olan əhalinin pozulmuş hüquqlarının carçısına çevrilmiş icma bu prosesə öncüllük edərək, Ermənistanın xalqımızın tarixi-mədəni irsini məhv etməsi ilə bağlı dünya ictimaiyyətinin məlumatlandırılması işində fəal çıxış edir, on minlərlə qərbi azərbaycanlının doğma yurdlarına qayıtması üçün yorulmadan çalışır.

# "Qərbi Azərbaycan ərazisi tarixi Azərbaycan torpaqlarıdır"

Qərbi Azərbaycan ərazisi tarixi Azərbaycan torpaqlarıdır. Min illər boyu həmin ərazilərdə soydaşlarımız yaşayıblar. Heç şübhəsiz ki, min illər ərzində orada Azərbaycan xalqına məxsus çox zəngin tarixi-mədəni irs yaradılıb. Amma 200 il bundan əvvəl başlayaraq mərhələlərlə oraya köçürülən ermənilər həmin mədəni irs nümunələrinin bir hissəsini məhv edib, bir hissəsini isə erməniləşdirərək özününküləşdirməyə çalışıblar, dünya ictimaiyyətinə erməni tarixi-mədəni irsinin nümunələri kimi təqdim ediblər. Buraya xalça, mətbəx, musiqi və sair mədəniyyət nümunələri daxildir.



Bu sözləri Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri Əziz Ələkbərli "Qərbi Azərbaycanın etnomədəni mühitinə səyahət" adlı tədbirdə AZƏRTAC-a müsahibəsində söyləyib. "Qərbi Azərbaycan İcması olaraq əsas məqsədimiz tarixi torpaqlarımızdakı Azərbaycan mədəni irs nümunələrinə sahib çıxmaq, bunu dünya ictimaiyyətinə çatdırmaqdır. "Qərbi Azərbaycanın etnomədəni mühitinə səyahət" adlı bu tədbir də həmin silsilədən atılan addımlardan biridir. Şübhəsiz ki, biz bu cür sərgilərin davamlı olmasını nəzərdə tuturuq. Sentyabrın sonuna qədər ölkədə bir neçə belə sərgi keçiriləcək. Qərbi Azərbaycan İcması olaraq belə sərgiləri xarici ölkələrdə də təşkil etməyi nəzərdə tutmuşuq. Qarşımızda Ermənistan kimi hər cür yalana, hər üsula əl atan düşmən dayanır. Biz onların qarşısına ancaq faktlarla, sənədlərlə, sübutlarla, mənbələrlə çıxmalıyıq ki, ermənilərin yüz illər ərzində dünya ictimaiyyətinin beyninə yeritdiyi yalanları, saxtakarlıqları qazıb çıxaraq və Qərbi Azərbaycan həqiqətlərini qəbul etdirə bilək", - deyə icma sədri vurğulayıb.

# "Qərbi azərbaycanlılar ləyaqətlə doğma torpaqlarına qayıdacaqlar"

Hər bir millətin mədəniyyəti onun tarixən əldə etdiyi maddi və mənəvi dəyərlərin məcmusudur. Qərbi Azərbaycanın etnomədəni mühitini əks etdirən sərgidə nümayiş olunan maddi mədəniyyət nümunələri bir daha onu göstərir ki, Qərbi Azərbaycan Azərbaycanın milli-mədəni inkişafının formalaşdığı coğrafiyalardan biridir. Ermənilər tərəfindən qərbi azərbaycanlıların soyqırımına, etnik təmizləmə siyasətinə məruz qalmasına baxmayaraq, bu gün yenidən böyük coşqu ilə öz hüquqlarını tələb etməsi məhz bu mədəniyyətdən, tariximizdən və milli yaddaşımızdan aldığımız güclə əlaqədardır.



Bunu AZƏRTAC-a müsahibəsində Qərbi Azərbaycan İcmasının sədr müavini, Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib. "2022-ci il dekabrın 24-də Prezident İlham Əliyev bir qrup Qərbi Azərbaycan ziyalısı ilə görüşərkən Qərbi Azərbaycana qayıdışın konseptual əsasları ilə bağlı strateji fikirlər səsləndirdi. Qısa müddətdə elə bir mərhələyə gəlib çatmışıq ki, Brüsseldə keçirilən Azərbaycan-Ermənistan sülh danışıqlarında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel qərbi azərbaycanlıların Ermənistana qayıtması məsələsinin də danışıqların predmeti olduğunu bildirdi. Bu özözlüyündə mühüm tarixi hadisədir. Düşünürəm ki, bu gün hər nə qədər Ermənistanın baş naziri Nikol Paşinyan qərbi azərbaycanlıların müraciətinə cavab verməsə də, BMT, digər beynəlxalq təşkilatlar, strukturlar qərbi azərbaycanlıların müraciət və çağırışlarını cavabsız qoymurlar. Gec-tez Paşinyan da qərbi azərbaycanlıların çağırışlarına cavab vermək məcburiyyətində qalacaq. Qərbi azərbaycanlılar ləyaqətlə doğma torpaqlarına qayıdaraq tarixən yaratdıqları bu mədəniyyəti yenə də öz torpaqları üzərində inkişaf etdirəcəklər", - deyən H.Babaoğlu fikirlərinə yekun vurub.



# Milli iradənin təntənəsi

## Azərbaycan beynəlxalq hüquq çərçivəsində Laçında sərhəd nəzarət-buraxılış məntəqəsini qurmaqla Ermənistanın və xarici havadarlarının separatizmə uzanan əllərini qırdı

**"Bu il aprelin 23-də Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsi qoyulmuşdur. Bir daha iradə, cəsarət, öz gücünə əminlik nümayiş etdirərək biz bunu etdik".**

Avqustun 26-da böyük coşqu ilə keçirilən Laçın Şəhəri Günü bayramını laçınlılarla birlikdə qeyd edən İlham Əliyev Həkəri çayının sahilindən bir daha ölkəmizin öz sərhədlərini əbədi bərpa etdiyini qürurla vurğuladı.

Qalib lider İlham Əliyev bu məsələ ilə bağlı Azərbaycana təzyiqlər edənlərə, müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Ermənistana və onun arxasında dayananlara sərt xəbərdarlığını etdi, Laçında sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulmasını beynəlxalq hüquq çərçivəsində etdiyimizi, öz ərazimizi, sərhədlərimizi qoruduğumuzu və qoruyacağımızı qətiyyətlə bildirdi.

### Qürur tarixi

2023-cü il aprelin 23-də xalq olaraq, ölkəmiz, dövlətimiz adına qürurlu və şərəfli bir səhifə çevirdik. O gün Azərbaycan ay-ulduzlu, üçrəngli bayrağını Laçın sərhəd nəzarət-buraxılış məntəqəsində yüksəldib dalğalandırmaqla vətən torpaqlarının bütövlüyü, sərhədlərinin bərpası kimi müstəsna missiyasını fəxarətlə başa vurdu.

Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması Vətən müharibəsindəki Zəfərdən sonra Azərbaycanın əldə etdiyi böyük hərbi-siyasi qələbə oldu və bununla da Ermənistanın, onun havadarlarının Laçın yolu vasitəsilə separatizmə yardım əllərini qırdı.

Bu həm də haqq və ədalətin təntənəsi, 30 il torpaqlarımızı işğal altında saxlayan, ərazilərimizdə özbaşınalıqlar edən, xalqımıza qarşı soyqırımları, qətliamlar törədən, separatizm xülyaları ilə suveren ərazilərimizə yiyələnmək istəyən düşmənin başına endirilmiş daha bir tutarlı "dəmir yumruq" zərbəsi oldu, separatçıları ömürboyu Azərbaycan bayrağına baş əyməyə məhkum etdi.

Bu il iyulun 6-da Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistanın Laçında Azərbaycana məxsus sərhəd nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı tələbini yekdilliklə rədd etməsi isə ölkəmizin separatizm üzərində qəti qələbəsinin beynəlxalq hüquqla təsdiqlənməsi oldu.

BƏM-in sözügedən tarixdəki qərarı da göstərdi ki, məhkəmə Azərbaycanın Ermənistanla şərti dövlət sərhədlərində nəzarət-buraxılış məntəqəsini qurmaqla bağlı beynəlxalq hüquq əsasında suveren hüquqa malik olduğunu rəsmi tanıyır, ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həyata keçirdiyi milli maraqlarını qəbul edir.

### Ermənistan ölkəmizə qarşı ərazi iddiasından əl çəkməyib

Amma Fransa başda olmaqla bəzi qərəzli ölkə və təşkilatlar heç cür Azərbaycanın suveren hüquqlarına dayanaraq öz sərhədində nəzarət-buraxılış məntəqəsi yaratmasını həzm edə bilmirlər. Təbii ki, həmin riyakar ölkə və qurumların Cənubi Qafqazda münaqişə və müharibə ocağı yaratmaq üçün separatizmə dəstək verməsi 44 günlük müharibədə rəzilcəsinə məğlub olan və kapitulyasiya aktına imza atmağa məcbur olan Ermənistanı, necə deyərlər, cürətləndirib, yenidən ölkəmizə qarşı ərazi iddiaları iştahasını qabardıb.

İki ölkə arasında sülh müqaviləsinin imzalanması ilə bağlı keçirilən üçtərəfli görüşlərdə "Qarabağ Azərbaycandır" həqiqətini qəbul etdiyini sözdə dünyaya bəyan edən Ermənistanın baş naziri əməldə bunun əksini deyir, əlindən gələn bütün fitnəkarlıqlarla barışığa əngəl olmağa çalışır.

44 günlük müharibədən ötən üç il ərzində Ermənistan sülh müqaviləsinin bağlanması istiqamətində irəliyə yönəlik heç bir addım atmayıb. İstər Brüsseldə, istər Soçidə, istərsə də Moskvada indiyə qədər baş tutan görüşlər Ermənistanın hərbi və siyasi təxribatlar törətməsi fonunda keçib. Bu il iyulun 15-də Brüsseldə keçirilən 6-cı üçtərəfli görüşdən sonra isə İrəvan ölkəmizə qarşı təxribatlarını daha da intensivləşdirib.

Azərbaycanın Laçın yolunda sərhəd-buraxılış məntəqəsi qurması ilə separatizmin nəfəsliyini bağlamasını həzm edə bilməyən İrəvan və xarici yandaşları min bir fitnə törədir, dayanmadan ölkəmizə yeni iftiralar atırlar. Onlar hansısa riyakar təşkilatlara "bəyannamə" adı altında kağız-kuğuz qəbul etdirməyə çalışırlar. Ermənistanın "böyük bacı"sı Fransanın başçılığı altında bəzi ermənipərəst ölkələr vaxtaşırı yığışaraq BMT TŞ-də Azərbaycan əleyhinə qətnamələr çıxarmaq istəyirlər. O da faktdır ki, hər dəfəsində də bu iyrənc istəkləri ürəklərində qalır.

### Haqq da, hüquq da Azərbaycanın tərəfindədir

Ölkəmizin Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəsi təsis etməsini guya bu yolun bağlanması, "blokada" kimi qələmə verən İrəvanın məqsədi Xankəndidə, əslində, hərbi xuntanın girovluğunda olan erməni sakinlərin "aclıq" yaşadığı xəbərini beynəlxalq mediada tirajlamaq idi. Təəssüf ki, bəzi beynəlxalq KİV-lər də erməni yalanlarına alət olublar.

Azərbaycanın Qarabağda yaşayan erməni sakinlərin reinteqrasiyası ilə bağlı ardıcıl əməli addımlar atması, həmin sakinlərin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi və digər alternativ yollardan istifadə ilə bağlı təkliflər verməsi, eləcə də Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən ilkin olaraq Xankəndiyə 40 ton un göndərməsi həqiqəti üzə çıxartdı, bədnam erməni yalanlarını açıb ortaya qoydu.

Eyni zamanda Ermənistan tərəfinin bütün bu təklif və yardımlardan imtina etməsi, bölgədə gərginlik yaratmaq üçün ölkəmizə qarşı hərbi təxribatlara əl atması İrəvanın sülh istəmədiyini bariz şəkildə göstərir.

Amma sülhə əngəl olmaq üçün sərgilədiyi bütün bu məkr və riyakarlıq elə Ermənistanın özü üçün ağrı-acılı nəticələr doğuracaq.

"Bizə qarşı aparılan kampaniya, çirkin təbliğat bizim iradəmizə təsir edə bilməz, bizi yolumuzdan döndərə bilməz. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, biz heç kimdən qorxmuruq və bunu göstərmişik, həm döyüş meydanında, həm siyasi müstəvidə", - deyə Laçından, Həkəri çayının sahilindən Müzəffər Ali Baş Komandan İlham Əliyev dünyaya bəyan etdi.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Paşinyan yenə sərsəmlədi

Ermənistanın baş naziri Nikol Paşinyan sentyabrın 2-də qondarma Dağlıq Qarabağla bağlı təbrikində Azərbaycana qarşı növbəti dəfə ərazi iddiası irəli sürüb. Cəmi 4 ay əvvəl ölkəmizin ərazi bütövlüyünü tanıdığını bəyan etməsinə baxmayaraq, Paşinyanın yenidən Vətən müharibəsinə qədərki ritorikasına qayıtması ermənilərin heç vaxt səmimi və dürüst olmadıqlarını sübut edir. Rəsmi İrəvan belə əsassız bəyanatları ilə regionda vəziyyəti gərginləşdirməyə və faktiki olaraq sülh danışıqları prosesini məhv etməyə çalışır. Ermənistanın bu mövqeyi həmçinin beynəlxalq hüququn norma və prinsiplərinə hörmətsizlikdir. Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.





### İrəvan hərbi-siyasi təxribat ritorikasına əl atır

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, Paşinyanın 2 sentyabr tarixli açıqlamaları göstərir ki, Azərbaycanla şərti sərhədlərdə və Qarabağda törədilən hərbi təxribatların arxasında Ermənistan dayanıb: "Bu həm də hayların yenidən təcavüzkar niyyətlər üçün fürsət gözlədiyindən xəbər verir. Görünən odur ki, qalib Azərbaycanın ardıcıl sülh təklifləri, əməkdaşlıq çağırışları İrəvanda lazımınca qiymətləndirilmir, yaxud fərqli anlaşılır. Belə olan halda, Ermənistanla yenidən onların anladığı dillə, yəni "dəmir yumruq"la danışmaq lazımdır".

Deputat deyib ki, İrəvanda Köçəryan-Sarkisyan cütlüyünün, Qarabağda isə onların himayəsi altında Arkadi Qukasyan və Bako Saakyanın yenidən aktivləşməsi ermənilərin öz havadarlarının təşviqi ilə artıq revanş niyyətlərini reallaşdırmaq fikrində olduğunu göstərir. Təbii ki, Azərbaycanın bu prosesin gedişatına dözmək niyyəti yoxdur. Prezident İlham Əliyevin ifadə etdiyi kimi, biz qisasımızı 44 günlük savaşda almışıq. İrəvanın start verdiyi ardıcıl təxribatları fonunda Bakı BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutaraq hərbi əməliyyatlarla təhlükəsizliyini təmin etmək hüququnu özündə saxlayır.

B.Məhərrəmov deyib ki, əgər erməni təxribatları əsgərimizin yaralanması ilə müşahidə olunur və təhlükəsizliyimiz təhdid edilirsə, onda cəza tədbirləri kimdəsə sual doğurmamalıdır: "Bu il iyunun 23-də Prezident İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrindən birinə baş çəkərkən Ermənistanla şərti sərhəd boyunca bütün əlverişli mövqelərdə möhkəmlənməyimizin, yüksəkliklərdə olmağımızın ölkəmizə strateji üstünlük qazandırdığını, ordumuzun isə böyük dərəcədə gücləndiyini bəyan etmişdi. Möhtərəm Prezidentin dediyi kimi, əgər bütün bu amilləri Ermənistan və onun arxasında dayanan xarici dəstəkçiləri başa düşmürlərsə, onda günah onların boynunda qalır".

Deputatın sözlərinə görə, Ermənistan dövlət çevrilişi ərəfəsindədir. İrəvan məhz siyasi gərginlik fonunda hərbi-siyasi təxribat ritorikasına əl atmaqdadır. Lakin Ermənistan da, havadarları da dərk etməlidirlər ki, Azərbaycanın İrəvanın subyektiv niyyətini araşdırmağa nə vaxtı, nə də həvəsi var. Heç bir əsas və səbəb Ermənistanın hərbi-siyasi təxribatlarına haqq qazandıra bilməz. Azərbaycana doğru açılan hər gülləyə görə İrəvan məsuliyyət daşıyır və cəzasını alacaq. İrəvanın ümid etdiyi havadarlarının dəstəyinə gəlincə isə cənab İlham Əliyevin avqustun 26-da Laçında, Həkəri çayının sahilindən bəyan etdiyi kimi, "heç kim bizim iradəmizə təsir edə bilməz".

### Ermənistan regionda gərginliyin qalmasında maraqlıdır

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu bildirib ki, Paşinyan sentyabrın 2-də Azərbaycana qarşı ərazi iddiasını ifadə etməklə yeni mövqe sərgiləməyib. Hər kəsə yaxşı məlumdur ki, Paşinyan mövqelərində hər zaman sərt transformasiyalar edir, onun fikirlərində mütəmadi olaraq paradoksallıq müşahidə olunur.

"Xatırlatmaq yerinə düşər ki, Paşinyan hakimiyyətə gəldiyi ilk vaxtlardan qondarma separatçı rejimi ayrıca subyekt kimi təqdim etməyə çalışıb. Hər zaman belə bir fikir səsləndirib ki, qondarma Dağlıq Qarabağ separatçı rejimi Azərbaycanla özü danışıqlar aparmalıdır. Bu o deməkdir ki, Paşinyan elə o vaxtdan separatçıları ayrıca müzakirə tərəfi kimi dövriyyəyə qatmaq istəyib. Mahiyyət etibarilə, Paşinyanın bu addımları separatçıların müstəqil subyektə çevrilməsinə xidmət etmək cəhdləridir", - deyə deputat qeyd edib.

Elşad Mirbəşiroğlunun sözlərinə görə, Paşinyan heç vaxt Azərbaycanın ərazi bütövlüyünü səmimi şəkildə tanımayıb. Sadəcə, ölkəmizin yaratdığı reallıqların təsiri altında bir sıra deklarativ bəyanatlar verib ki, guya Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Son açıqlamasında isə separatçıların statusundan danışmaqla əsl mövqeyinin nədən ibarət olduğunu bir daha nümayiş etdirib.

Deputat deyib ki, Ermənistan heç vaxt öz xoşu ilə Azərbaycanla sülh sazişi imzalamayacaq: "Nəzərə almaq lazımdır ki, Paşinyanın sələfləri də eyni mövqedən çıxış edir, müzakirələrdə imitasiyalarla məşğul olurdular. Onlar özlərini məsələləri danışıqlar yolu ilə həll etməyə hazır kimi göstərsələr də, reallıqda tamamilə fərqli - işğalçı və təcavüzkar mövqedə tuturlar. Paşinyan da sələfləri kimi bunu hər addımda nümayiş etdirir".

Elşad Mirbəşiroğlunun dediyinə görə, Paşinyanın mövqeyi ondan ibarətdir ki, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində hər hansı bir sənəd imzalanarsa, orada separatçı rejimin hansısa statusu öz ifadəsini tapsın. Bu həm də Paşinyanın geosiyasi oyunların aləti olduğunu göstərir. Ermənistanın baş naziri onu hakimiyyətə gətirən Qərb dairələrinin təlimatları ilə regionda gərginliyin qalmasında maraqlıdır. Yalnız bu təqdirdə həmin dairələrin Cənubi Qafqaz regionuna müdaxilə imkanlarının qalacağını başa düşür".

Deputat əlavə edib ki, Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü aqressivcəsinə şübhə altına alan bəyanatlar səsləndirməsi onun həm də öz fikirlərinə hörmətsiz yanaşdığını göstərir. O, heç vaxt səmimi olmayıb və bundan sonra da olmayacaq. Belə olan halda isə, Azərbaycan Ermənistanı sülhə məcburetmə strategiyasını daha intensiv və sistemli şəkildə həyata keçirməlidir.

*Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"*

# Fransa Ermənistanı müharibəyə təhrik edir

Dünyada gedən siyasi proseslərə təsir imkanını itirən Fransanın Azərbaycan-Ermənistan sülh danışıqlarına özünü pərçim etmək həvəsi regionda sülhə töhfə verməkdən daha çox ara qarışdırmağa, gərginlik yaratmağa xidmət edir. Fransa 44 günlük Vətən müharibəsində Ermənistanın ağır məğlubiyyətini heç cür həzm edə bilmir. Bu ölkənin son dövrdə oyunu açıq oynamasının səbəbi təsadüfi deyil.

Hər gün "bir ağıla düşən", verdiyi sözün üstündə durmayan, öz imzası ilə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyən Nikol Paşiniyanın "peşəkar avantürist" olduğunu hamı bilir. Fransa prezidenti Emmanuel Makronun Ermənistanın baş naziri Nikol Paşinyanı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə üçtərəfli danışıqlara tək buraxmamağının bir səbəbi də elə erməni baş nazirin siyasətdə piyada olmasıdır. Bir sözlə, əgər əvvəlki illərdə Fransadan hazır gələn ssenariləri Ermənistanın sabiq prezidentləri Robert Koçaryan və Serj Sarkisyan əzbərləyib qüsursuz icra edə bilirdilərsə, N.Paşinyan bu işin öhdəsindən gələ bilmir. Bu səbəbdən də Fransa prezidenti oyunu açıq oynamaq məcburiyyətində qalıb. Ermənistana hər cür siyasi dəstək və təhlükəsizlik təminatı verəcəyini vəd edən Fransa dünyanın diqqətini daha çox cəlb etmək məqsədilə "humanitar böhran" şousu yaradıb ölkəmizə qarşı təzyiq göstərmək üçün bəzi dövlətlərin gücündən istifadə etməyə çalışır.

Qarabağda "humanitar böhran" şousunun real görünməsi üçün 10 yük avtomobili "humanitar yardım"ın da Fransa tərəfindən sərhədlərimizə göndərilməsi bu məqsədə xidmət edirdi. Nəzərə alsaq ki, Fransada prezident seçkiləri zamanı hakimiyyətə gələn qüvvələrin o ölkədə fəaliyyət göstərən erməni lobbisinin səsinə və puluna böyük ehtiyacı olur, bu səbəbdən də fransız siyasətçilərin "erməni sevdalısı" olmalarını başa düşmək o qədər də çətin deyil. Məsələ bundadır ki, Azərbaycan Laçın sərhəd nəzarət-buraxılış məntəqəsini yaratmaqla Qarabağda məskən salan separatçılara "müstəqillik" vədi verən fransız siyasətçilərin hakimiyyətə gedən yolunu da bağlamış olur. Elə bu səbəbdən də fransızlar sağa-sola məsuliyyətsiz bəyanatlar verir, regionda sabitliyi pozmağa çalışırlar.

Fransanın prezidenti bir neçə gün öncə açıqlama verərək "indi diplomatiya vaxtı deyil", - dedi. Makronun bu açıqlamasının "nəticəsini" çox da gözləməli olmadıq. Ermənistanın silahlı qüvvələri Basarkeçər rayonunun ərazisindən ordumuzun Kəlbəcər rayonunun Zod kəndi istiqamətində yerləşən mövqelərinə zərbə PUA-ları ilə həmlə etdi. Nəticədə üç əsgərimiz ağır yaralandı. İş yalnız bununla da bitmədi. 44 günlük Vətən müharibəsi zamanı dünyanın bir sıra dövlət başçılarına yalvararaq atəşkəs istəyən və Rusiyanın vasitəçiliyi ilə buna nail olan Nikol Paşinyan açıqlama verərək "Ermənistanın sülh danışıqları prosesindən" çıxdığını bəyan etdi.

### Yalançını mənzilinə kimi qovarlar

Danışıqlar prosesində Nikol Paşinyanın ilk gündən qeyri-səmimi olduğu bəlli idi. Ermənistanın vaxt qazanmaqdan ötrü atəşkəs üçün yalvardığını da bilirdik. Heç fırıldaqçı Nikol özü də bunu gizlətmir, dəfələrlə "əgər atəşkəsə imza atmasaydım, mühasirəyə düşmüş on minə yaxın Ermənistan ordusu tamamilə məhv ediləcəkdi" kimi açıqlamalar verib özünün "xilaskar" obrazını yaratmağa çalışırdı. Üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq, sərhədlərin delimitasiya və demarkasiyasına mane olması da Ermənistanın Azərbaycana qarşı ərazi iddiasından əl çəkmədiyini sübut edir.

Danışıqlar prosesinə "müstəqil tərəf" kimi "artsax"ın nümayəndələrini də cəlb etmək arzusu ermənilərin çoxgedişli oyununun tərkib hissəsi idi. Bununla da Ermənistan sülh danışıqları prosesini qeyri-müəyyən vaxta qədər uzatmağa, bundan istifadə edib yenidən güc toplamağa nail olmaq istəyirdi.

Nikol Paşinyan Ermənistanın sülh danışıqları prosesindən çıxdığını deməklə özünü ifşa etmiş oldu. Bu gün regionda hərbi-siyasi vəziyyət ciddi şəkildə gərginləşib. Demək olar ki, Ermənistan hər gün sərhədlərimizdə ardıcıl hərbi təxribatlar törədir. Ermənistanın Qarabağda saxladığı silahlı qüvvələri də fəallaşıb. Azərbaycan bu təxribatların qarşısını almaq məqsədilə düşmənə preventiv zərbələr endirmək məcburiyyətində qalır.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışı zamanı ordumuzun döyüş hazırlığından, gücündən danışarkən çox açıq şəkildə fikrini ifadə edərək demişdir: "Biz unutmamalıyıq ki, İkinci Qarabağ müharibəsinin nəticələrinə baxmayaraq, bu gün Ermənistan cəmiyyətinin, hətta hökumətinin tərkibində müəyyən insanlar var ki, hələ də revanşist ideyalarla yaşayır və onlar bunu gizlətmirlər. Ona görə biz hər hansı bir ssenariyə hazır olmalıyıq. Bu məqsədlə biz İkinci Qarabağ müharibəsi bitən kimi, möhtəşəm Zəfərimizi nümayiş etdirən kimi dərhal yenidən müdafiə sahəsində dərin islahatlar həyata keçirməyə başlamışıq. Mən artıq bunu ictimai şəkildə bəyan etmişəm. Bu gün ordumuz üç il əvvəlki ordudan daha güclüdür. Buna, əlbəttə ki, ehtiyac var".

Təbii ki, sülh prosesinin olmadığı zaman istənilən halda müharibə təhlükəsi yenidən aktuallaşır. Biz müharibə istəmirik. Hər zaman sülhə sadiq olduğumuzu sübut etmişik. Amma bunun əksi olaraq dəfələrlə ərazilərimizin bütövlüyünü tanıdığını bəyan edən Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın Qarabağ iqtisadi regionunda olan erməni separatçı-terrorçuları "müstəqillik günü" münasibətilə "təbrik" etməsi düşmənin yeni riyakarlığa əl atmaq niyyətində israrlı olduğunu, böyük bacısından yeni tapşırıq aldığını deməyə əsas verir. Bu həm də Nikol Paşinyanın Azərbaycanın daxili işinə açıq surətdə qarışması, ərazilərimizdə erməni separatizmini və terrorizmini dəstəkləməsi deməkdir.

Ermənistan 30 il işğal etdiyi Azərbaycan torpaqlarında "istehkamlar" tikib "keçilməz sədlər" yaratmışdı. Azərbaycan əsgəri bu istehkamları dağıdaraq həmin sədləri cəmi 44 günə keçib, Ermənistan hərb maşınını darmadağın etdi. Bu gün üç il bundan əvvəlki ordumuzdan daha qüvvətli olan Azərbaycan Silahlı Qüvvələri ilə Ermənistanın nə üz-üzə gəlməyə gücü yetər, nə də cəsarəti çatar. Sual oluna bilər ki, bəs onda Ermənistanın baş nazirini belə məsuliyyətsiz çıxışlar etməyə məcbur edən nədir? Yenə ilk ağıla gələn Fransa olur. Xatırladaq ki, Avropa İttifaq Şurasının prezidenti Şarl Mişellə görüşdə iştirakı təmin olunmayan Emmanuel Makron o zaman da danışıqlar prosesini əngəlləməyə nail olmuşdu. Sonradan bu proses ABŞ-nin vasitəçiliyi ilə bərpa edildi. Görünən budur ki, bu müddət ərzində danışıqlar prosesindən kənarda qalıb, Azərbaycanın apardığı çevik siyasət nəticəsində sülh prosesinə "öz töhfə"sini verə bilməyib aciz duruma düşən Emmanuel Makron məğlubiyyətini qəbul edə bilmir, daha təhlükəli oyun oynamaq niyyətindədir. Fransa öz çirkin maraqları naminə taqətdən düşmüş Ermənistanı yenidən müharibəyə sürükləyir.

Azərbaycanın dəfələrlə bəyan etdiyi kimi, regionda hər hansı silahlı qarşudurma baş verərsə, bunun məsuliyyəti danışıqlar prosesini pozan Ermənistanın üzərinə düşəcək.

*Elşən QƏNİYEV, "Azərbaycan"*



AZƏRBAYCAN 105





# "Azərbaycan" qəzetində ədəbiyyat məsələləri

## "Nizami ili"nin baş təbliğatçısı

**Ötən yüzilliyin önlərində dahi Mirzə Cəlil Məmmədquluzadə "Azərbaycan" adlı məqaləsində sual verirdi: "Haradır Azərbaycan?" Və özü də öz coğrafi-ritorik sualına cavab olaraq dünyanın tən ortasında yerləşən böyük bir məmləkətin sərhədlərini cızırdı. Və mətbuat tariximizin flaqmanlarından olan, ictimai-siyasi-iqtisadi-mədəni tariximizdə böyük rol oynamış, 1918-1920-ci illərin dövlət müstəqilliyinin qanlı-qadalı yollarında qeyrət kəmərini bir an belə belindən açmamış "Azərbaycan" qəzeti o zaman (elə indi də!) vulkan kimi qaynayan, haqqı nahaqqın ayağına verməyə şirniklənən dünyada məhz bu böyük məmləkətin maraqlarını vicdanla, cəsarətlə, namusla güdürdü.**

Bu gün müasir "Azərbaycan" qəzeti də öz sələfinin vətənşümul missiyasını şərəflə yerinə yetirməkdə, davam etdirməkdədir. Mən bu məqaləni bitirhabitirməkdə olduğum günlərdə qəzetin 9335-ci sayı işıq üzü gördü. Hər sayın ən azı 8, bir sıra hallarda isə 16 səhifədən ibarət olduğunu nəzərə alsaq və orta hesabla 10 səhifə götürsək, bu, 100.000 qəzet səhifəsi edər ki, bunu da statistik çap vərəqinə çevirsək və 16-ya vursaq...

Əlbəttə, bu qədər nəhəng ensiklopedik materialın araşdırılmasına illər və elmli igidlər gərəkdir! Yəqin ki, bundan sonra "Azərbaycan" qəzetinin həm bu günə qədər yayılmış, həm də bu gündən sonra - Azərbaycan ölkəsi durduqca - bunun isə əbədi olduğunu Ulu Öndərimiz Heydər Əliyev çox gözəl obrazlı dillə ifadə etmişdir! - nəşr olunacaq saylarındakı ən müxtəlif problemlərin araşdırılmasına sanballı məqalələr, monoqrafiyalar, dissertasiyalar həsr ediləcəkdir.

Bizim isə bu kiçik yazımızda ixtisasımıza uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "2021-ci ilin "Nizami ili" elan edilməsi" haqqında 5 yanvar 2021-ci il tarixli Sərəncamına operativ və əməli cavab olaraq qəzetin həmin bir il ərzində dünyaşöhrətli dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi irsini necə təbliğ etməsini izləmək və gücümüz yetdiyi qədər qiymətləndirmək olmuşdur.

Əlbəttə, aydındır ki, bu məqsədin özünü də kiçik bir məqalədə yerinə yetirmək zor bir işdir; nəzərə alsaq ki, əksəriyyəti bir qəzet səhifəsindən ibarət olan həmin materialların sayı 40-a yaxındır və çoxu da Nizami irsinin biliciləri və adlı-sanlı alimlərimiz tərəfindən qələmə alınmışdır.

Təbii ki, "Nizami ili"nin girişi qəzetin 6 yanvar tarixli sayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adını çəkdiyimiz proqram xarakterli sərəncamı ilə açılmalı idi və açılır da. Sərəncamda Nizami Gəncəvi irsinin qlobal mahiyyətinin yüksək qiymətləndirilməsi nizamişünaslığın qarşısında duran problemləri və aktual vəzifələri təkcə bir il üçün deyil, yaxın və uzaq perspektiv üçün də dəqiq müəyyənləşdirir:

"Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur".

Təbii ki, sərəncamın preambulunda Nizami irsinin bu günə qədər öyrənilməsinə və təbliğinə də qısa nəzər salınır və bu sahədə misilsiz xidmətlər göstərmiş Ulu Öndər Heydər Əliyevin roluna da layiq olduğu qiymət və dəyər verilir.

Bəli, dünyada çox az xalqların bu cür nəhəng bədii-fəlsəfi sərvəti olur və həmin tükənməz, ölməz sərvətin qədrini bilmək, bunu mədəniyyətimizin böyük bir qlobal uğuru kimi dünyaya tanıtmaq, bütün Yer kürəsini hörümçək toru kimi bürümüş informasiya savaşında bundan ən kəsərli bir silah kimi yararlanmaq mümkündür, lazımdır və vacibdir! Möhtərəm Prezidentimizin sərəncamından irəli gələn ən böyük vəzifə məhz budur və bu vəzifənin gerçəkləşdirilməsi yolunda 2021-ci ildə "Azərbaycan" qəzetinin böyük bir çaba və qeyrət göstərdiyini qətiyyən danmaq olmaz!

Əlamətdardır ki, "Azərbaycan" qəzetində "Nizami ili" Prezidentin sərəncamı ilə açıldığı kimi, ilin sonunda - dekabrın 31-də Prezidentin Nizami Gəncəvi ilə bağlı keçirdiyi başqa bir tədbiri ilə də qapanır. "Nizami ili"nin sonunda "Dahi mütəfəkkirin xatirəsinə ehtiram" başlığı altında verilmiş həmin xəbərdə deyilir:

"Mövcud park və xiyabanların yenidən qurulması və yenidən salınması Bakının müasir görünüşünə və ekoloji vəziyyətinə müsbət təsir edən amillərdəndir. "Nizami ili"nin sonunda dahi mütəfəkkirin adını daşıyan parkın yenidənqurmadan sonra istifadəyə verilməsi həm də rəmzi olaraq xüsusi məna kəsb edir".

Doğrudan da, "Nizami ili"ndə dahi Azərbaycan şairi və mütəfəkkirinin həyatı və yaradıcılığı ilə bağlı çox işlər görülmüş, istər ölkədə, istərsə də xaricdə yüzlərlə məqalələr, kitablar, monoqrafiyalar yazılmış, beynəlxalq və yerli konfranslar, simpoziumlar və başqa tədbirlər keçirilmişdir; lakin ilin yekunu kimi məhz dekabrın 31-də - Dünya Azərbaycanlılarının Həmrəylik Günündə dahi şairin adını daşıyan möhtəşəm parkın Azərbaycan Respublikasının Prezidenti və birinci xanımın iştirakı ilə açılması şairə göstərilən ən böyük hörmət və məhəbbətin nişanəsi kimi misilsiz önəm daşıyır.

O da əlamətdardır ki, "Nizami ili"nin yekununa doğru "Azərbaycan" qəzetində dərc olunmuş sanballı məqalələrdən biri də məhz son dövrlərdə Nizami Gəncəvinin dünya çapında dahi Azərbaycan şairi və mütəfəkkiri kimi tanıdılmasında böyük xidmətlər göstərmiş akademik Nərgiz xanım Paşayevanın Böyük Britaniyanın Oksford Universitetindəki nizamişünaslıq və nizamisevərlik fəaliyyətinə həsr edilmiş "Tarixə yazılan imza" adlı iri sanballı yazıdır. Qəzetin 14 dekabr sayında işıq üzü görmüş bu məqalənin müəllifi Elçin İskəndərzadə akademik Nərgiz xanım Paşayevanın nizamişünaslığın inkişafı və Nizami Gəncəvinin dahi Azərbaycan şairi kimi dünya miqyasında tanıdılması və təbliği sahəsində gerçəkləşdirdiyi müstəsna xidmətlərini yüksək qiymətləndirərək yazır:

"2013-cü ildən başlayaraq akademik Nərgiz Paşayevanın dünyanın ali məktəbləri sırasında birinci yerdə olan Oksford Universiteti kimi məşhur elm və təhsil ocağında Azərbaycanla əlaqəli gördüyü işləri izləyirəm. "Çəkilən zəhmət barsız olmaz" deyib müdriklər. Nəticədə dahi Azərbaycan şairi Nizami Gəncəvi irsinin öyrənilməsi, təbliği sahəsində ən möhtəşəm bir layihənin icrası başa çatdı. Biz bu gün Londonda - Böyük Britaniyanın paytaxtında, dünya universitetləri sırasında birinci yerdə olan Oksford Universitetinin nəzdində Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Mərkəzinin fəaliyyətə başlaması kimi mühüm tarixi hadisənin şahidləriyik. Tarixilik ondadır ki, bu layihə son və qəti şəkildə Nizaminin Azərbaycan xalqına məxsusluğunu təsdiq etdi. Bu gün dünyanın düşünən beyin mərkəzi olan Avropa bu klassik Şərq şairinin azərbaycanlı olduğunu bilir, onu öyrənir, mənimsəyir və onun simasında ölkəmizi tanıyır. İllər sonra hər hansı avropalının yanında Nizaminin adı çəkilsə, dərhal Azərbaycanı düşünəcək, Azərbaycan deyəndə Nizami Gəncəvi xatırlanacaq".

"Nizami ili" ilə bağlı "Azərbaycan" qəzetinin sərgilədiyi operativliyi ondan görmək olar ki, sərəncam dərc olunan kimi qəzetin növbəti - 7 yanvar sayında axıcı dili, bənzərsiz üslubu, müxtəlif mövzulara həsr edilmiş orijinal yazıları ilə bizim zövqümüzü oxşayıb maarifləndirən, Əməkdar jurnalist İradə xanım Əliyevanın "Əsrlərdən gələn səs" məqaləsi dərc olunur. Məqalədə özünü Nizami irsinin bilicisi kimi göstərən müəllif əsas diqqəti Nizami yaradıcılığının bu gün üçün də aktual olduğunu vurğulamağa yönəldərək yazır:

"44 günlük Vətən müharibəsində xeyir şər üzərində qələbə çaldı. Bu, Qarabağ torpaqlarında hər kəsin rifah içində yaşamasına, xoşbəxt bir həyatın qurulmasına, insan hüquq və azadlıqlarının qorunmasına, ermənilərin illərlə xarabalıqlara çevirdikləri məkanlarımızın yenidən cənnətə çevrilməsinə zəmin yaradan qələbədir. Nizami Gəncəvinin əsərlərinin də əsas qayəsində məhz bəşəriyyət üçün bu ali məqsədlər durur. Böyük mütəfəkkir "Xəmsə"sində də, lirik şeirlərində də məhz mütərəqqi ideyaları, inkişaf niyyətlərini təbliğ edirdi. Dağıdıcılığı yox, quruculuğu, nifrəti, insana əzab verməyi yox, onun rifahına çalışmağı önə çəkirdi. Ədaləti, insanpərvərliyi, sevgini, dostluğu, əməksevərliyi, dürüstlüyü, saflığı və s. bu kimi mənəvi keyfiyyətləri insanlığın zinəti kimi göstərirdi".

Tamamilə doğrudur. Yalnız onu əlavə etmək istərdim ki, Nizaminin yaratdığı ədalətli hökmdar obrazlarının işığında tərbiyə olunaraq, xalqına rəhbərliyə layiq görülmüş şəxsiyyətlər, Dədəm Qorqudun dili ilə desək, "bəy ərənlər" ulu babalarının bu cür proqressiv humanist ideyalarını həyata keçirməyə, xalqa rəhbərliyi xalqa xidmətdə, Vətənə sədaqətdə və məhəbbətdə görməyə qadirdirlər.

Əksinə, nifrət saçan, yaxşılıqdan başqa bir şey görmədiyi qonşusunu fürsət düşəndə min bir əzabla öldürməyə hazır olan, pəncərəyə mıxlanmış körpənin başının dərisini soyaraq onun neçə dəqiqəyə ölməsini izləmək kimi "elmi eksperiment" aparan və bu cür mənfur "igidliyindən" özünü qəhrəman sayan, "ruhu göylərə ucalan" (Zori Balayan, Allah ona lənət eləsin!) goreşən babalarının insanofob ideyalarının üfunətli bataqlığında "nəşvü nüma" tapmış, ifritə analarının murdar əmcəklərindən süd əvəzinə qan-irin əmmiş ikiayaqlı vəhşilər heç vaxt Nizami kimi dahilərin humanist ideyalarını anlamazlar...

Əsas təsir gücü informasiya yükünün sanbalında olan mətbu orqanı kimi "Azərbaycan" qəzeti respublikanın başqa qurumlarında "Nizami ili" ilə bağlı tədbirlərə operativ reaksiya verməsi ilə də seçilmişdir. Qəzetin 23 yanvar sayında Milli Kitabxanada "Nizami Gəncəvi ili"nə həsr edilmiş kitab sərgisindəki sanballı tədbirdən böyük bir reportaj hazırlanmış, eləcə də tədbirin yüksək önəmi xüsusi olaraq vurğulanmışdır. Bu sətirlərin müəllifinin də iştirak etdiyi həmin tədbirdə Nizami Gəncəvinin Avropa ölkələrinin kitabxanalarında saxlanan Nizami əsərlərinin əlyazmalarının surətləri nümayiş etdirilirdi. Əlbəttə, Prezident sərəncamında da qeyd edildiyi kimi, dünya kitabxanalarında və muzeylərində, şəxsi kitab və əlyazma saxlanclarında Nizami Gəncəvinin bir çox əlyazmaları var ki, hələ də indiyə qədər tədqiqatdan kənarda qalmış və Azərbaycan alimləri üçün əlçatmaz olmuşdur. Yalnız dövlət müstəqilliyimizin verdiyi müstəsna imkanlar sayəsində həmin əlyazmaların surətləri əldə edilərək ölkəyə gətirilimiş və araşdırıcıların ixtiyarına verilmişdir.

"Nizami ili" iki il bundan öncə bitsə də, dünya səviyyəli Azərbaycan dahisinə maraq və məhəbbət bitməmişdir və bu gün də davam edir. Kim bilir, bəlkə nizamişünaslarımızın axtarışı nəticəsində Nizami avtoqrafları da üzə çıxacaq və şairin əsərlərinə əlyazmaların üzünü köçürən katib müdaxilələri birdəfəlik aradan qaldırılacaq...

Qəzetin 27 yanvar sayında parlamentin Mədəniyyət komitəsinin iclası barədə verilən informasiyada oxuyuruq:

"Qənirə Paşayeva (Milli Məclisin Mədəniyyət komitəsinin sədri - T.K.) bildirib ki... 2021-ci ilin "Nizami Gəncəvi ili" elan olunması ilə bağlı mühüm layihələr hazırlanır. Komitə sədri bu layihələrin icrası ilə bağlı Mədəniyyət komitəsinin üzərinə düşən vəzifələrdən söhbət açıb".



"Söhbət açıb" və xüsusi olaraq qeyd edək ki, bu söhbətlər yalnız söhbət olaraq qalmayıb və nəzərdə tutulan tədbirlər bütün ilboyu intensiv şəkildə həyata keçirilib. Bu tədbirlərin həyata keçirilmə intensivliyini isə elə "Azərbaycan" qəzetindən izləmək olar. Belə ki, hər ay ən azı iki-üç, bəzi aylarda isə hətta beş-altı materialın qəzetdə getməsi bu fikrə gəlməyimizə imkan verir.

"Azərbaycan" qəzetinin 4 fevral sayında dahi şairin vətəni qədim Gəncə şəhərində "Nizami Gəncəvi ili" ilə bağlı videokonfransın keçirildiyi haqqında müfəssəl informasiya verilmişdir. Aydındır ki, 2021-ci il təkcə "Nizami Gəncəvi ili" deyildi, həm də bütün dünyada qorxulu, bir çoxlarının isə hətta qiyamət gününün əlaməti olan virusun yayıldığı və buna görə də bir çox tədbirlərin onlayn keçirildiyi illərdən biri idi. Bəlkə bunun da təsiri olmuşdur ki, Gəncədəki Nizami tədbirində əsas diqqət dahi şairin müxtəlif elm sahələrini əhatə edən elmi görüşləri arasından ekoloji görüşlərin seçilməsinə ayrılmışdı.

Bu cür onlayn keçirilən tədbirlərdən biri də Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi tərəfindən keçirilən "Nizami Gəncəvi və Əlişir Nəvai: ənənə və novatorluq" mövzusunda beynəlxalq konfrans olmuşdur. Qəzetin 11 fevral sayında bu möhtəşəm konfrans haqqında da geniş məlumat verilmişdir. Qeyd edək ki, təkcə ədəbiyyatşünaslıq elmində deyil, bütövlükdə humanitar və ictimai elmlər sahəsində ensiklopedik bilikləri ilə seçilən və bu sahələrdə sanballı tədqiqatlara imza atan akademik İsa Həbibbəylinin konfransdakı giriş sözü güclü reaksiya doğurmuş və bir növ konfransın gedişinə istiqamət vermişdir:

"Akademik (akademik İsa Həbibbəyli - T.K.) hər iki şairin (Nizami Gəncəvi və Əlişir Nəvainin - T.K.) yaradıcılığı haqqında danışaraq bildirib ki, böyük Azərbaycan şairi Nizami Gəncəvi dünyada ilk "Xəmsə" yaratmış qüdrətli sənətkardır və "Xəmsə"nin Şərq dünyasında böyük təsiri olub. Nizami ortaq mədəniyyətimizin zirvələrində dayanır, onun ardıcıllarından biri də Əlişir Nəvaidir. "Xəmsə" yaradıcılığında hər iki birincilik Azərbaycana və Özbəkistana məxsusdur. Əlişir Nəvai "Xəmsə" yaratmaqla bütün türk dünyasına böyük xidmət göstərmiş, türk dilinin "Xəmsə" yaratmaq qüdrətinə malik olduğunu sübut etmişdir".

Onu da qeyd edək ki, hazırda Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti kimi məsul bir vəzifəni böyük uğurla gerçəkləşdirən və elmimizin parlaq gələcəyi naminə yorulmadan çalışan, akademiyada taleyüklü islahatlar aparan akademik İsa Həbibbəyli həm də "Nizami ili"ndə bu münasibətlə qələmə alınan əsərlərə rəhbərlik etməklə kifayətlənməmiş, eyni zamanda gecəsini gündüzünə qataraq dahi şairin həyat və yaradıcılığı haqqında sanballı bir monoqrafiya da qələmə alaraq Azərbaycan, türk, rus, ingilis, alman, Çin, polyak, gürcü, Ukrayna və bolqar dillərində nəşr etdirmişdir.

Bu qiymətli əsər haqqında bu məqalənin müəllifinin yazdığı "Nizami dühasının mükəmməl elmi təqdimatı" resenziyası "Azərbaycan" qəzetinin 12 noyabr sayında dərc olunmuşdur.

Bu böyük zəhmətinə qane olmayan akademik İsa Həbibbəyli "Nizami Gəncəvi ili"ndə "Azərbaycan" qəzetində iki sanballı məqalə ilə çıxış etməyi özünə borc bilmiş və bununla da nizamişünasların boynuna böyük bir minnət qoymuşdur.

Akademik İsa Həbibbəylinin "Azərbaycan" qəzetində "Nizami ili"nə həsr etdiyi birinci sanballı məqalə "Azərbaycan ədəbiyyatının dünya gözəli" adlanır və qəzetin 29 aprel sayında işıq üzü görmüşdür. Bütövlükdə dahi şairin dördüncü poeması "Yeddi gözəl"in orijinal təhlilinə həsr olunmuş məqalə Nizami yaradıcılığına verilən belə bir ümumiləşdirici proloqla başlanır:

"Qədim tarixə və çoxəsrlik inkişaf yoluna malik olan Azərbaycan ədəbiyyatında Nizami Gəncəvidən uca zirvə yoxdur. Nizami Gəncəvi Azərbaycan ədəbiyyatına dünya ədəbi və ictimai fikirini fəth etmək rekordu qazandırmışdır. Şərq ədəbiyyatında və Qərb ədəbi fikrində Nizami Gəncəvi ilə müqayisə ediləbiləcək sənətkarlar çox deyildir.

Fikrimizcə, Qərbdə Nizami Gəncəvinin adını Homer və Şekspirlə, Rusiyada Lev Tolstoyla yanaşı çəkmək olar. Şərq ədəbiyyatında isə Nizami Gəncəvi əlçatmaz zirvə olaraq qalmaqdadır".

Daha sonra Nizami "Xəmsə"si ilə "Kitabi-Dədə Qorqud" eposunu qarşılaşdıran tədqiqatçı onları Azərbaycan ədəbiyyatının qoşa zirvəsi adlandırır, hər iki abidənin xalqımızın mədəniyyət tarixi üçün misilsiz əhəmiyyət daşıdığı fikrini irəli sürür. Məqalədə "Yeddi gözəl" poemasının indiyə qədər heç bir nizamişünasın fərqinə varmadığı özəlliklərini və bədii məziyyətlərini üzə çıxaran akademik İsa Həbibbəyli öz orijinal tədqiqat üslubuna sadiq qalaraq məqalənin sonunda poemanı orijinal tezislərlə xarakterizə etməyi də unutmur. Özünə üz tutaq:

""Yeddi gözəl" Nizami Gəncəvinin real və ideal gözəllik anlayışının bənzərsiz poetik təcəssümüdür.

"Yeddi gözəl" Azərbaycan ədəbiyyatının yeddi rəngli göy qurşağı, qövsi-quzehidir.

"Yeddi gözəl" yerin yeddi qatı qədər dərin, göyün yeddi qurşağı kimi cazibədar əsərdir.

"Yeddi gözəl" dünya ədəbiyyatının yeddi möcüzəsindən biridir".

Akademik İsa Həbibbəylinin "Nizami ili"nə həsr etdiyi növbəti sanballı məqaləsi qəzetin 6 may sayında dərc edilib və "Heydər Əliyevdən İlham Əliyevə... Nizami ədəbi irsi" adlanır. Adından da göründüyü kimi, tədqiqat məqaləsində iki dahi dövlət başçısının, siyasətçi və diplomatın, eyni zamanda mütəfəkkir şəxsiyyətin başqa bir dahi mütəfəkkir-şairə verdiyi qiymətin, onun irsinin təbliği üçün göstərdikləri qeyrətin, bununla da xalqa və vətənə xidmətin elmi təhlili akademik İsa Həbibbəylinin təkraredilməz qələmi ilə öz parlaq əksini tapmışdır.

Məqalədə həmçinin Nizami dühasının beynəlxalq səviyyədə nüfuz və hörmətinin göstəricisi olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin və Böyük Britaniyanın Oksford Universitetində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin də fəaliyyətinin qiymətləndirilməsi öz lakonik təqdimini tapmışdır:

"Mühüm ictimai-siyasi və elmi-mədəni tədbirlərin həyata keçməsinə meydan açan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi isə dünyanın tanınmış dövlət xadimləri və elm adamları ilə birlikdə böyük sənətkarın adını, irsini tanıtmaq və ideallarını qlobal miqyasda təbliğ etmək üçün təsis edilmiş ideal platformadır. Böyük Britaniyanın Oksford Universitetində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətə başlaması ölkəmizin alimləri ilə yanaşı, tanınmış dünya şərqşünaslarının da araşdırma və təbliğat prosesinə cəlb edilməsinə şərait yaradır".

Məlumdur ki, Nizami Gəncəvi Gəncə zadəganlarının ailəsindən çıxdığına görə mükəmməl təhsil almış, dövründə məlum olan bütün elm sahələrinə vaqif olmuşdur. Elə bu səbəbdən bu gün Nizamini təkcə ədəbiyyatşünaslar, dilçilər, filosoflar, tarixçilər və humanitar elmin başqa sahələrinin mütəxəssisləri deyil, həm də dəqiq elmlərin nümayəndələri həvəslə araşdırır və bu dahinin əsərlərində heyrətamiz elmi faktlarla qarşılaşırlar. Bu cür tədqiqatlar sırasında Əhmədağa Əhmədovun "Nizami - elmşünas" kitabı xüsusilə seçilir.

"Azərbaycan" qəzetinin 14 mart sayında çap olunmuş "Nizami poeziyasında Yer haqqında elmlər" adlı sanballı məqalə isə respublikamızda bu elmin flaqmanı olan akademik Akif Əlizadənin qələmindən çıxmışdır. Bütöv bir qəzet səhifəsini tutan bu araşdırma əsərində müəllif bir çox elmi qənaətləri Nizami poemaları ilə müqayisədə irəli sürdükdən sonra bu nəticəyə gəlir:

"Beləliklə, məlum olur ki, Nizami təkcə şair yox, həm də alim, kamil tədqiqatçı, genişmiqyaslı tarixçi, bir neçə xarici dilə bələd olan dilçi, nəsihətləri, tövsiyələri səkkiz əsr müddətində köhnəlməyən və bugünkü nəsil üçün daha vacib olan bir əxlaq alimidir. Cəsarətlə demək olar ki, onun əsərləri hələ tam tədqiq edilməmiş və layiqincə qiymətləndirilməmişdir".

"Nizami ili"ndə "Azərbaycan" qəzetində çap olunmuş, öz nəzəri silqəti ilə seçilən məqalələrdən biri də 26 sentyabr sayında işıq üzü görmüşdür. Bu, professor Şirindil Alışanlının "Nizami poeziyası Mir Cəlalın nəzəri şərhində" adlı sanballı elmi-nəzəri məqaləsidir. Müəllif problemə belə bir elmi-nəzəri rakursdan yanaşır: "Klassik ədəbi irs öz əbədiyaşarılığını təyin edən, bəşəri mənəvi sərvətə çevrilən ədəbi-estetik meyarları baxımından tarixin ictimai-siyasi mahiyyəti ilə fərqlənən bir mərhələsində nəzəri fikrin "sınağına" çəkilir. Ədəbi-nəzəri fikir də bu məqamda klassikanın müstəvisində imtahan verməli olur. Bu gedişatda klassika nəzəri fikrin yanlış "təhlil və dəyərləndirmə arsenalına" xitam verir, ədəbiyyatşünaslığın obyektiv elmi prinsiplərə əsaslanan təcrübəsi zəminində yeni ideya-bədii qatları ilə dövriyyəyə gəlir".

Bu nəzəri postulatdan çıxış edən professor Şirindil Alışanlı klassik irsin ən böyük bilicilərindən və doğru-düzgün şərhçilərindən biri olan professor Mir Cəlal Paşayevin Nizami Gəncəvi yaradıcılığına orijinal yanaşma və təhlil tərzini alimin Füzuli haqqında tədqiqatları ilə müqayisədə təhlil müstəvisinə çıxarır.

Azərbaycan Respublikasının qlobal miqyasda nüfuzunun artması, dünya dövlətləri arasında mövqeyinin möhkəmlənməsi ona gətirib çıxarır ki, respublikada keçirilən bir sıra görkəmli tədbirlərə xaricdən də hay verənlər, mədəniyyətimizi təbliğ edənlər artır. "Nizami ili"nin də əks-sədası təkcə Azərbaycandan deyil, xaricdən də eşidilməkdədir. Bu mənada UNESCO-nun mənzil qərargahında Nizami Gəncəvinin 880 illiyinin qeyd edilməsi - Azərbaycan mədəniyyəti və ədəbiyyatının, qlobal humanist milli-mənəvi dəyərlərimizin bütün dünyada tanıdılması və təbliği baxımından böyük əhəmiyyət kəsb edir. "Azərbaycan" qəzetinin 6 oktyabr sayında bu mühüm hadisənin mahiyyəti lakonik şəkildə təqdim edilmişdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə Çin Xalq Respublikasının paytaxtı Pekində "Nizami Gəncəvi - bütün bəşəriyyətin şairi" adlı tədbirin keçirilməsi dünyanın bu nəhəng regionunda Nizami Gəncəvinin qlobal önəminin tanıdılması üçün böyük əhəmiyyət daşıyır. "Azərbaycan" qəzetinin 26 may sayında bu barədə geniş məlumat alırıq. Təkcə tədbir təşkilatçılarının və iştirakçılarının sadalanmasına baxsaq, onun nə qədər nüfuzlu olduğunu təsəvvür edə bilərik.

Macarıstanda rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlamentinin nümayəndə heyəti iyunun 29-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Budapeşt nümayəndəliyinin ofisində "2021-ci il - Nizami Gəncəvi ili"nə həsr olunmuş tədbirdə iştirak edib. Bu məlumat "Azərbaycan" qəzetinin 30 iyun sayında dərc edilib. Tədbirdə Nizami Gəncəvinin Macarıstanda dərc olunan və dahi Azərbaycan şairinə həsr olunan kitabın təqdimatının keçirildiyini və Nizami Gəncəvinin xatirəsinə həsr edilmiş proqramın nümayiş edildiyini də öyrənirik.

"Nizami ili"ndə respublikada keçirilən bir sıra ənənəvi tədbirlər də həmin il Nizami Gəncəvinin 880 illiyinə həsr edilmişdir. Məsələn, magistr və doktorantların III Beynəlxalq Konfransını buna örnək göstərə bilərik. Həmin konfrans haqqında informasiya qəzetin 8 iyun sayında öz əksini tapmışdır.

"Nizami ili"ndə dahi şairin ölməz irsinin təbliği üsullarından biri də uyğun sərgilərin təşkil edilməsi olmuşdur. Yuxarıda Milli Kitabxanada təşkil edilmiş əlyazma sərgisindən söhbət açmışdıq. Belə bir sanballı sərgi də Heydər Əliyev Mərkəzində açılmış "Nizaminin süjet və obrazları" adlı sərgi olmuşdur. İyulun 22-də açılmış bu sərgi haqqında məlumat qəzetin 24 iyul sayında verilmişdir.

Sərginin maraq doğuran cəhəti budur ki, onun əsas təşkilatçılarından biri Rusiya Dövlət Şərq Xalqları İncəsənəti Muzeyi olmuş, Heydər Əliyev Fondunun dəstəyi ilə Bakıda təşkil edilmişdir. Sərgi həmin ilin mart ayında Moskva şəhərində nümayiş olunmuş və sonra Bakıya gətirilmişdir. Sərgidəki bütün eksponatlar Rusiya Federasiyasının müxtəlif muzey və saxlanclarından götürülmüşdür.

"Nizami ili"nin maraqlı tədbirləri sırasında Ümumrespublika "Xəmsə" Festivalını da yaddan çıxarmaq olmaz. Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin təşkilatçılığı ilə keçirilən festivalın Gəncədə baş tutan final mərhələsi haqqında məlumat "Azərbaycan" qəzetinin 5 oktyabr sayında öz dolğun əksini tapmışdır. Festivalın əsas məqsədi gənclər arasında milli-mənəvi dəyərlərimizə, klassik irsimizə maraq və məhəbbətin daha da gücləndirilməsi olmuşdur.

Bunun ardınca dahi şairin vətəni Gəncə şəhərində Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Gəncə Dövlət Universitetinin və İstanbul Universitetinin təşkilatçılığı ilə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin 880 illiyi ilə bağlı beynəlxalq konfrans keçirilmişdir ki, bu haqda məlumatı da yenə "Azərbaycan" qəzetinin 16 noyabr sayından alırıq.

"Nizami ili"nin ən möhtəşəm tədbirlərindən biri də Bakıda noyabrın 24-də öz işinə başlamış Nizami Gəncəvi Beynəlxalq Forumu olmuşdur. "Forum dahi mütəfəkkirin zəngin ədəbi irsini araşdıran nüfuzlu beynəlxalq alim, tədqiqatçı və elm adamlarını bir araya gətirib" ("Azərbaycan" qəzeti, 25 noyabr).

Əlbəttə, indinin özündə də bir sıra ölkələrdə dahi Azərbaycan şairinin İran şairi kimi qəbul edildiyi bir zamanda bu cür beynəlxalq forumların müntəzəm olaraq keçirilməsinin necə böyük önəm daşıdığını söyləmək artıqdır.

Bütün respublikanı, hətta bir sıra xarici ölkələri əhatə edən Nizami tədbirləri "Nizami ili"nin ta sonuna qədər davam etmiş, müxtəlifyönlü tədbirlərdə şairin yaradıcılığının qlobal əhəmiyyəti və aktuallığı xüsusi vurğulanmış, insan xislətinə xas olan naqisliklərin, vəhşi instinktlərin islahında onun humanist fikir və ideyalarının bu gün də faydalı olacağı qənaəti irəli sürülmüşdür. Dekabrın 7-də baş tutmuş Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş ümumrespublika konfransında bu problemlər bir daha diqqət önünə çəkilmişdir ("Azərbaycan" qəzeti, 8 dekabr).

Müəlliflər arasında gənc tədqiqatçılara geniş yer verilməsi "Azərbaycan" qəzetinin rəhbərliyinin gənclərə qayğı və inamının təzahürü kimi qiymətləndirilə bilər. Özəlliklə dosent Təhminə xanım Bədəlovanın beş (!) sanballı məqaləsini, dosent Aygün xanım Bağırlının maraqlı yazılarını, filologiya üzrə elmlər doktoru Elnarə xanım Akimovanın məqaləsini qeyd etmək istərdim.

Tanınmış tədqiqatçı, professor Əlizadə Əsgərlinin böyük şairimiz Xəlil Rzanın Nizami yaradıcılığından etdiyi tərcümələr barədəki məqaləsi də diqqətəlayiqdir. Eləcə də tarixçi alim Əzizağa Ələkbərovun Nizami yaradıcılığına fərqli yanaşması maraq doğurur.

İnformativ və elmi-publisistik materiallarla yanaşı, Nizami Gəncəvi irsindən verilən örnəkləri, şairin müdrik kəlamlarından seçmələri də illüstrativ material kimi qiymətləndirmək olar.

"Nizami ili" tarixə qovuşdu, 365 gün bitdi. Ancaq Nizamiyə maraq, Nizamiyə məhəbbət, Nizamidən öyrənmək, Nizami ilə fəxr etmək, qürur duymaq, Nizami dühasını yetirən qədim və mədəni xalqımıza ehtiram bəsləmək bitmədi.

*Teymur KƏRİMLİ,*
*akademik*



# Qədim Gəncə ənənəsinə sadiqdir

## Hər sahədə inkişaf, hər işdə yenilik

**Ölkənin qədim şəhəri Gəncə gəncləşməkdə davam edir. Həyata keçirilən abadlıq və yenidənqurma işləri şəhərin simasını dəyişir, onu daha gözəl və daha müasir edir. Yeni qəsəbələr, park və xiyabanlar qədim Nizami yurduna təzə həyat gətirir.**










Əvvəlki illərdə olduğu kimi, cari ilin də şəhər üçün yaddaqalan olacağını indidən demək olar. Bunu şəhərin iqtisadi göstəricilərinə nəzər salanda daha aydın görmək mümkündür. Məsələn, cari ilin 6 ayı ərzində şəhərdə istehsal edilmiş ümumi məhsul buraxılışının həcmi 618,1 milyon manata çatmışdır ki, bu da 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə çoxdur. Bu dövrdə istehsal olunan məhsulların 22,4 faizi dövlətin, 77,6 faizi qeyri-dövlət bölmələrinin payına düşüb. Şəhər üzrə orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 12,8 faiz artıb. O cümlədən sənayedə çalışan muzdlu işçilərin orta aylıq əməkhaqqı 12,4 faiz artaraq 675,7, qeyri-dövlət sənaye müəssisələrində işçilərin əməkhaqqı 10,1 faiz artaraq 711,2 manata çatıb.

Hazırda Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən Gəncə şəhərində inşa edilən KOB evinin tikintisi sürətlə davam edir. "Gəncə KOB evi"nin 2023-cü ilin sonunda fəaliyyətə başlaması nəzərdə tutulur. "Mehmanoğlu Yem və Taxıl" MMC-nin müəssisəsində isə quş, iri və xırdabaşlı heyvanlar üçün yem istehsal ediləcəkdir. Müəssisənin istehsal gücü saatda 10 ton olacaq. Bununla yanaşı, burada ümumi həcmi 30 min ton olan 4 taxıl saxlama çənləri quraşdırılmışdır. İlkin olaraq 20 nəfərin işlə təmin edildiyi müəssisədə işçi sayının 30-a çatdırılması nəzərdə tutulur.

Azərbaycanın maşınqayırma sənayesinin flaqmanı olan, artıq 20 ilə yaxındır ki, ölkəni müxtəlif avtomobil və kənd təsərrüfatı texnikaları ilə təmin edən "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi də fəaliyyətini genişləndirmişdir. İB həm Avropada, həm də dünyanın kənd təsərrüfatı bazarında öz keyfiyyəti və davamlılığı, yüksək məhsuldarlıq xüsusiyyətləri ilə seçilən traktorların istehsalçısı olan İtaliyanın "SDF Group" şirkəti ilə əməkdaşlıq müqaviləsi bağlamışdır. Yeni model traktorların təqdimat mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi Müşahidə Şurasının sədri Xanlar Fətiyev, İtaliyanın "SDF Group" şirkətinin beynəlxalq regional direktoru Umberto Miceli və digər qonaqlar iştirak etmişlər. "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi hələlik il ərzində 300-ə yaxın traktorun yığılmasını planlaşdırır. İlkin olaraq "DEUTZ-FAHR 4100 W", "6205 G" və "115 G AGROFARM" alman traktor modellərinin Azərbaycanda yığılması üçün razılıq əldə edilmişdir. Müqavilənin şərtlərinə əsasən, əməkdaşlıq çərçivəsində yığılacaq traktorların model sırasını gələcəkdə genişləndirmək nəzərdə tutulur.

Şəhərdə həyata keçirilən abadlıq-quruculuq işləri də səngimir. Qəzalı vəziyyətdə olan yataqxana və yaşayış binalarından köçürüləcək sakinlərin yerləşdirilməsi üçün inşa edilən 249 mənzilli yeni yaşayış binalarının tikintisi, eyni zamanda inşasına 2018-ci ildə başlanmış İdman Sarayının inşası davam edir. Ekoloji Park Kompleksinin tikintisi sürətlənib. Bəstəkar Qəmbər Hüseynlinin məzarüstü abidəsinin ətrafında salınan park isə şəhərə bir ayrı yaraşıq verir. Yeni parkda körpə və uşaqlar üçün müxtəlif attraksionlar, idman qurğuları quraşdırılmışdır.

Cari ilin əvvəlindən Gəncə Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi tərəfindən Gülüstan yaşayış massivində, 1-ci mikrorayonda, bir çox küçə və digər ərazilərdə ümumilikdə 335 işıq dayağı, 7 paylayıcı şkaf, 866 led tipli işıqlandırıcı lampa, 267 plafon formalı işıqlandırıcı quraşdırılmış, kabel xətləri çəkilmiş, 201 lift cari təmir edilmişdir. Yaşıllıqların qorunub saxlanılması və bioloji müxtəlifliyin inkişafı üçün isə "İstiqlal", "Qələbə", Fikrət Əmirov, Füzuli, İzmir parklarında, Bayraq meydanında, Gəncə-Yevlax şosesi istiqamətində, "İmamzadə" dini kompleksi ərazisində və digər ərazilərdə ümumilikdə 192 mindən çox ting, kol və çiçək əkilmiş, 4 subartezian quyusu təmir edilərək istismara verilmiş, 966 hektar əraziyə mütəmadi qulluq göstərilmişdir. Söz düşmüşkən, onu da qeyd edək ki, şəhər icra hakimiyyətinin dəstəyi və Kəpəz Bələdiyyəsinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş ağacəkmə aksiyası keçirilmişdir. Nizami Gəncəvi məqbərəsinin ətrafında keçirilən aksiya zamanı 100 xan çinarı əkilmişdir. Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi tərəfindən də Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyləri münasibətilə ağacəkmə aksiyası təşkil olunmuşdur. Aksiyada 200 sərv ağacı əkilmiş, onlara xüsusi aqrotexniki qulluq göstərilmiş, suvarılması təmin edilmişdir.

Məlum olduğu kimi, məşğulluq siyasəti, işsizliyin aradan qaldırılması, əhalinin sosial rifahının yüksəldilməsi kimi məsələlər dövlətin sosial siyasətinin prioritet istiqamətləridir. Bu siyasət Gəncədə də uğurla icra olunur. Məsələn, təkcə 6 ay ərzində Dövlət Məşğulluq Agentliyinin Gəncə-Daşkəsən Regional Məşğulluq filialında işsiz və işaxtaran qismində 2 min 471 nəfər qeydiyyata alınmış, 989 nəfər işlə təmin edilmişdir. Bundan əlavə, "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Prezidentin sərəncamına əsasən, ötən dövr ərzində Gəncə üzrə 303 nəfər özünüməşğulluq proqramına cəlb edilmiş, proqram çərçivəsində 21 nəfər aktivlərlə təmin olunmuşdur. Bu da hələ hamısı deyil. Cari ilin may ayında Azərbaycan Texnologiya Universitetinin və Dövlət Məşğulluq Agentliyinin birgə təşkilatçılığı ilə əmək yarmarkası keçirilmişdir. Əmək yarmarkasında ümumilikdə 40-dan çox müəssisə tərəfindən 400-dən artıq vakansiya təqdim olunmuş və həmin işlərə xeyli sayda gəncəli götürülmüşdur.

İş yerlərindən söz düşmüşkən. Bu yaxınlarda Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Gəncə İş Adamları İctimai Birliyinin təşkilatçılığı ilə Gəncə şəhərində sahibkarlarla görüş keçirilmişdir. Görüşdə sahibkarlığa göstərilən mövcud dəstək mexanizmləri, bu sahədəki yeniliklər, KOBİA tərəfindən təmin edilən dövlət dəstəyi və xidmətlər barədə məlumat verilmiş, sahibkarlar biznesin inkişafı üçün ehtiyaclarını və təkliflərini səsləndirmişlər.

Şəhərdə qazlaşdırma prosesi də davam edir. Sadıllı, Cavadxan, Məhsəti, Natəvan qəsəbələrində, Heydər Əliyev prospektində, Gülüstan yaşayış massivində, 38 saylı hərbi şəhərcikdə, bir sıra küçələrdə yeraltı qaz xətləri yerüstü xətlərlə əvəz edilmişdir.

Ölkədə qarşıya qoyulan və böyük əhəmiyyət verilən prioritet məsələlərdən biri də əhalinin, şəhər və rayonların su təchizatı sisteminin yenidən qurulmasıdır. Məlum olduğu kimi, Gəncədə Almaniya İnkişaf Bankının (KFW) krediti hesabına "Açıq Kommunal İnfrastruktur Proqramı II" layihəsi həyata keçirilir. Layihə çərçivəsində 2023-cü ilin birinci yarısında 11 min 929 paqonometr su xətti, 8 min 593 paqonometr kanalizasiya xətti çəkilmişdir. Hazırda işlər davam edir.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Gəncədə də silsilə tədbirlər keçirilir. Şəhər icra hakimiyyətinin təşkilatçılığı ilə Gəncə Dövlət Filarmoniyasında ümumşəhər tədbiri təşkil edilmişdir. Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin və Gürcüstanın Gəncədəki baş konsulları Recep Öztop və Nikolos İaşvili, Quru Qoşunların komandanı, general-leytenant Ənvər Əfəndiyev, Milli Məclisin deputatları, ziyalılar, ictimaiyyət nümayəndələri iştirak etmişlər. Bu münasibətlə keçirilən tədbirlər çərçivəsində Gəncə Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə möhtəşəm konsert proqramı da olmuşdur. Konsertdən əvvəl Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin və Azərbaycan Velosiped Federasiyasının birgə təşkilatçılığı ilə veloyürüş keçirilmişdir. Şəhərin mərkəzindən start götürən veloyürüş Heydər Əliyev Mərkəzinin önündə yekunlaşmışdır. Burada rəsmilər və veloyürüş iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə tər çiçəklər düzmüş, xatirəsinə dərin ehtiramlarını ifadə etmişlər. Bu mövzunun davamı kimi onu da qeyd edək ki, cari il iyun ayının 9-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Əziz Şuşa" Beynəlxalq velosiped yarışının 3-cü mərhələsi keçirilmişdir. Velotura ümumilikdə 14 ölkədən 16 komandanın heyətində 100-ə yaxın velosipedçi qatılmışdır. Bundan başqa, Buxarest şəhərində keçirilən gənclər arasında Sərbəst Güləş üzrə Avropa Çempionatında da şəhər idmançıları fəxri kürsünün ən yüksək pilləsinə qalxmışlar. Ümumiyyətlə, bu il şəhərin idman aləmində çoxsaylı hadisələr olmuşdur. "Xəmsə" Taekvondo Klubu istifadəyə verilmiş, idmanın müxtəlif növləri üzrə 70 şəhər tədbiri və yarışı keçirilmişdir. Bu tədbirlərdə 6400-dən artıq idmançı iştirak etmişdir.

Türkiyənin Gəncədəki Baş konsulluğunda qardaş ölkənin qurucusu Mustafa Kamal Atatürkün anadan olmasının 104-cü ildönümü də qeyd edilmişdir. Şəhər ictimaiyyəti nümayəndələrinin, Gəncə şəhərində fəaliyyət göstərən universitetlərdə təhsil alan türkiyəli tələbələrin iştirak etdikləri tədbirdə Mustafa Kamal Atatürkdən bəhs edən videoçarx nümayiş olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın 190-a yaxın ölkə ilə ticarət əlaqəsi var

Hər bir ölkənin iqtisadi inkişafında ixracın önəmli rol oynaması yeni fakt deyil. Çoxdan məlumdur ki, ixrac istehsalı stimullaşdıran başlıca vasitədir, xüsusən də indiki zamanda və şəraitdə. İstehsalçı yaxşı bilir ki, daha çox gəlir əldə etmək üçün məhsulu xaricdə satmaq daha sərfəlidir.

Dünya təcrübəsindən də məlumdur ki, qlobal bazara daha çox məhsul ixrac edən ölkələr inkişaf edir, onların gəlirləri artır, maliyyə sabitliyi təmin olunur. Çinin və digər "Asiya pələngləri"nin keçdiyi inkişaf yolu buna bariz nümunədir.

Bu üzdən qarşılarına iqtisadi cəhətdən inkişaf etmək hədəfi qoyan ölkələr ixracın stimullaşdırılmasına dəstək verir. Məsələn, Niderlandın fermerləri məhsul istehsalına görə dövlətdən kifayət qədər yüksək subsidiya alırlar. Odur ki, kiçik dövlət olmasına baxmayaraq, dünya bazarına ABŞ-dən sonra ən çox kənd təsərrüfatı məhsulları ixrac edən ölkədir.



Türkiyə də qarşılaşdığı iqtisadi problemləri həll etmək üçün ixraca üstünlük verir. Qardaş ölkədə böhrandan çıxmaq üçün "istehsal və ixrac" modeli gerçəkləşdirilir. Türkiyə bu yolla inflasiyanın qarşısını almaq, işsizliyi azaltmaq və maliyyə sabitliyini təmin etmək istəyir.

Prezident İlham Əliyev dəfələrlə xarici ticarətdə ölkəmizin xeyrinə müsbət saldonun olmasını yaxşı hal kimi dəyərləndirmişdir. Bu səbəbdən ölkəmizin valyuta ehtiyatları ildən-ilə artır, ölkədə maliyyə sabitliyi güclənir. Hər iki amil Azərbaycan istisadiyyatının dayanıqlı və davamlı inkişafında önəmli rol oynayır. Ölkəmizin işğaldan azad olunan əraziləri heç bir dövlətdən və ya beynəlxalq təşkilatdan maliyyə yardımı almadan bərpa etməsi də bununla bağlıdır.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin yanvar-iyun aylarında ölkəmizin hüquqi və fiziki şəxsləri dünyanın 187 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 111 dövlətə məhsul ixrac edilmiş, 177 ölkədən mal idxal olunmuşdur.

Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statsitik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla cari ilin yanvar-iyun aylarında xarici ticarət dövriyyəsi 22 milyard 953,7 milyon, o cümlədən ixracın dəyəri 14 milyard 755,2 milyon, idxalın dəyəri 8 milyard 198,5 milyon dollar təşkil etmiş, nəticədə 6 milyard 556,7 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. 6 ayda ötən ilin eyni dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 11,4 faiz azalmış, real ifadədə isə 2,5, o cümlədən idxal 8,5, ixrac 0,6 faiz artmışdır.

İdxal və ixrac əməliyyatlarında ölkəmizin əsas partnyorları İtaliya, Türkiyə, Rusiya, Çin, Almaniya, Yunanıstan, Hindistan, İspaniya, İsrail, Türkmənistan, Çexiya, Gürcüstan, Rumıniya, Fransa, İrlandiya, ABŞ, İran, Qazaxıstan, Yaponiya, Bolqarıstan, Avstriya, Koreya, Xorvatiya, Belarus, Birləşmiş Krallıq, Ukrayna, Polşa, Vyetnam, Niderland və Braziliyadır. Ticarət apardığımız ölkələrin sayı və coğrafiyası sübut edir ki, ölkəmiz ixrac və idxal əməliyyatlarında aktivdir. Bu da onu göstərir ki, ölkəmizin iqtisadi əlaqələri dinamikdir və bu da gəlirliliyin təmin edilməsində önəmli rol oyanyır.

Məlumdur ki, ölkəmizin ixracında xam neft və təbii qaz, neft-qaz məhsulları üstünlük təşkil edir. Bununla yanaşı, qeyri-neft sektoruna aid məhsulların ixracının artmasını da danmaq olmaz. Hesabat dövründə qeyri-neft-qaz sektoruna aid məhsulların ixracında meyvə və tərəvəzin, plastik kütlə və ondan hazırlanan məmulatların, kimya sənayesi məhsullarının, alüminium və ondan hazırlanan məmulatların, pambıq lifi və ipliyin, qara metallar və onlardan hazırlanan məmulatların, alkoqollu və alkoqolsuz içkilərin, şəkərin, bitki yağlarının payı daha çoxdur. Ümumiyyətlə, yanvar-iyun aylarında qeyri-neft-qaz məhsullarının ixracı ötən ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 20,6, real ifadədə 16,9 faiz artaraq 1 milyard 773,3 milyon dollara çatmışdır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatına görə, bu ilin 7 ayında ixrac edilən qeyri-neft-qaz sektoruna aid malların ixracında elektrik enerjisi birinci, pomidor (tomat) ikinci, pambıq mahlıcı üçüncü yerdə olmuşdur.

Statistik rəqəmlərdən aydın olur ki, ölkəmizin ixracında neft-qaz məhsullarının satışı ilə yanaşı, qeyri-neft-qaz sektoruna aid malların ixracında da artım müşahidə edilir. Bu faktor ölkənin gəlirliliyinin və maliyyə sabitliyinin təmin edilməsində önəmli rol oynamaqla yanaşı, iqtisadi inkişafımızı da təmin edir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Özbəkistan Azərbaycana yeddi ayda 32 yük maşını tədarük edib

Yanvar-iyul aylarında Özbəkistan Azərbaycana 32 yük maşını tədarük edib.

AZƏRTAC xəbər verir ki, Özbəkistandan yük avtomobillərinin ixracı iki dəfədən çox artıb. İlk 7 ayda Özbəkistan altı xarici ölkəyə ümumilikdə 11,6 milyon dollar dəyərində 1069 yük maşını tədarük edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 630 ədəd çoxdur. Ən çox yük maşınları Qırğızıstana satılıb (765 ədəd). Hesabat dövründə Qazaxıstana 256, Azərbaycana 32, Tacikistana 11 yük maşını ixrac olunub.

# "Azərbaycan mədəniyyət həftəsi" Albaniyada maraqla qarşılanıb





Albaniyanın Tirana şəhərində Azərbaycanın zəngin mədəniyyəti, kulinariyası və incəsənət inciləri bu ölkənin ictimaiyyətinə təqdim olunub.





Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, tədbirin ilk günündə Tirana Milli Muzeyində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr edilmiş sərginin açılışı olub və Ümummilli Liderin şərəfli həyat yolu, zəngin və çoxşaxəli irsi ziyarətçilərə təqdim edilib.

Həmçinin Heydər Əliyev Fondunun Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunan fotosərgisi, Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasından görkəmli rəssamlarımızın əsərləri və Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasından əsrarəngiz xalçalar nümayiş olunub. Burada ziyarətçilər üçün VR - virtual reallıq qurğuları vasitəsilə Azərbaycanla virtual tanışlıq imkanı yaradılıb.

Eyni gündə Tirana şəhərinin İsgəndərbəy meydanında Xalq artisti Fəxrəddin Kərimovun bədii rəhbərliyi altında Kamera Orkestrinin müşayiəti ilə Xalq artistləri Fidan Hacıyeva, Azər Zeynalov, Əməkdar artistlər Ramil Qasımov, İnarə Babayeva, Elvin Qəniyev, həmçinin Sədəf Budaqova və İbrahim Babayevin ifasında milli musiqimizin inciləri tamaşaçılara təqdim olunub. Albaniyanın mədəniyyət naziri xanım Elva Margariti, Albaniyada akkreditə olunan xarici ölkə səfirləri və digər rəsmilər konserti izləyənlər arasında yer alıblar.

Növbəti gün "Natiq" ritm qrupu və "Mirvari" rəqs ansamblı rəngarəng proqramla çıxış ediblər. "Qavaldaş", "Qarabağ", "Yanardağ", "Mehriban", "Sarı gəlin" və s. kompozisiyaları yerli auditoriya böyük coşqu ilə qarşılayıb.

Musiqi və rəqslərimizin ecazkar çələngi ilə bərabər, səhnədəki monitorda Azərbaycanın tarixi, coğrafiyası, milli xalçalarımız, şəbəkə sənəti, İçərişəhər, Şuşa və Cıdır düzünün görüntüləri izləyicilərin böyük marağına səbəb olub.

Tədbirin son günündə Tirananın "Reja The Could" pavilyonunda Azərbaycan kino sənətinin əvəzsiz incilərindən olan, 1945-ci ildə çəkilmiş və Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə rəngli formatda bərpa olunmuş "Arşın mal alan" filmi nümayiş etdirilib.

Sonrakı gün Tirananın İtaliya meydanında Xalq artisti Ənvər Sadıqov və Əməkdar artist Emil Əfrasiyabın rəhbərlik etdiyi "Buta" qrupunun etno-caz konserti təşkil edilib. Qrup ənənə və müasirlik arasında körpü yaradaraq, müxtəlif janrlarda sintez xarakterli improvizasiyalar ifa edib.

Azərbaycan mədəniyyət həftəsi çərçivəsində, həmçinin Dövlət Turizm Agentliyinin Milli Kulinariya Mərkəzinin təşkilatçılığı ilə İsgəndərbəy meydanında yerli sakinlərə ölkəmizin milli mətbəx nümunələri, milli şirniyyatlarımızdan çələnglər və müxtəlif təbliğat-nəşr materialları təqdim olunub.

Mədəniyyət günləri çərçivəsində Azərbaycan nümayəndə heyəti Albaniyanın mədəniyyət naziri xanım Elva Margariti, Tirana şəhər meri Erion Veliac və Albaniya Milli Kitabxanasının direktoru Piro Mişa ilə görüşlər keçirib, ikitərəfli əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub.

# Hayastanda vəziyyət daha da dramatikləşir

## Paşinyan sələfləri kimi hakimiyyəti güc yolu ilə saxlamağa hazır olduğunu göstərir

**Müharibədəki ağır məğlubiyyətdən sonra son 3 ildir ki, İrəvanda siyasi xaos hökm sürməkdədir. Sülh müqaviləsinin imzalanmasının aktual olduğu dönəmdə yaranmış siyasi böhran fonunda əhalinin bir qismi hökumətin istefasını tələb edir.**

Bunu son dövrlərdə Hayastanda minlərlə insanın iştirakı ilə keçirilən aksiyalardan da görmək olar. Amma iqtidar küçələrə hərbi və polis qüvvələri çıxararaq sələfləri kimi hakimiyyəti güc yolu ilə saxlamağa hazır olduğunu göstərir.

Ölkədə insan hüquqları sahəsində yaşanan problemlərin miqyası sürətlə genişlənməkdə, vəziyyət ifrat həddə pisləşməkdədir. Hakimiyyətin öz maraqlarını təmin etmək məqsədilə repressiv metodlardan daha çox istifadə etməsi etirazları bir qədər də artırıb. Amma iqtidar mənsubları hələ də buna əhəmiyyət verməyərək rəqib və təhlükə saydıqları qüvvələri ən sərt üsullarla neytrallaşdırmağa çalışırlar.

Yerli media yazır ki, müharibədəki məğlubiyyət və sülh müqaviləsinin yubadılması fonunda ölkə cəhənnəmə çevrilib. Həm kəndlərdə, həm də şəhərlərdə əhalinin 98 faizi yoxsulluq içərisində yaşayır. Ölkə rəhbərliyində xalqı fəlakətə sürükləyən oğrular, fırıldaqçılar, əclaflar, satqınlar əyləşib. Bu, sadəcə sözlər deyil.

Qeyd olunur ki, Hayastanda polis və məhkəmələr təzyiq alətinə çevrilib. Onlar öz xalqına qarşı Stalin "KQB"-sindən daha qəddardırlar. Stalin insanları Yakutsk, Sibir, Altaya zorla sürgün edirdi. Amma Ermənistandakı keçmiş və indiki hakimiyyət insanları o həddə çatdırıb ki, artıq onlar əsir düşərgələrində əziyyət çəkən babalarının yerlərinə könüllü gedirlər.

Ümumiyyətlə, etiraz aksiyaları ətrafında baş verən proseslər insan haqlarının pozulması, məmur özbaşınalığı, qanunsuz həbslər, məhkəmələrin sifariş əsasında hökmlər çıxarması və bu qəbildən olan digər hadisələr indi Hayastanı xarakterizə edən əsas hallardır. Beynəlxalq miqyasda müxtəlif təşkilatlar, insan hüquqlarının müdafiəsi ilə məşğul olan qurumlar bu xüsusda İrəvana dəfələrlə iradlar tutsalar da, reallıqda dəyişən heç nə yoxdur.

Bütün bunların fonunda Hayastan ordusunda qeydə alınan nizamnamədən kənar münasibətlər də valideynlərin orduya inamını tam sarsıdıb. Belə insidentlər zamanı xəsarət alan hərbi qulluqçuların valideynlərinin Müdafiə Nazirliyinə dəfələrlə müraciət etmələrinə baxmayaraq, hadisələrin qarşısını almaq mümkün olmur.

Hayastanın "İnsan Haqları Naminə Jurnalistlər" ictimai təşkilatının sədri, erməni hüquq müdafiəçisi Janna Aleksanyan deyib ki, silahlı qüvvələrdə həlak olmuş hərbi qulluqçularla bağlı cinayət işlərinin araşdırılmasında iştirakının çoxillik təcrübəsi göstərir ki, cinayət işlərinin intihar həddinə çatdırılması heç vaxt açıqlanmır. Onun sözlərinə görə, Ermənistan ordusunda intihar olduqda ailəyə deyirlər ki, intiharın yükü ailələrin üzərinə düşür: "İstintaq Komitəsi bu işlərdə komandanlıqla fəal əməkdaşlıq edir və ölümdən dərhal sonra birlikdə işin nəticəsini həll edirlər. İstintaq Komitəsi bu cür cinayət işlərinin açılmasında məsuliyyət hiss etmir".

Aleksanyan vurğulayıb ki, işdə başqa halların yaranmasının heç bir əhəmiyyəti yoxdur, İstintaq Komitəsinin irəli sürdüyü fərziyyə dəyişmir və Hayastan İstintaq Komitəsinin sədri Argişti Kyaramyan ən pis ənənələrini davam etdirir. Prokurorluq isə hərbi işlərə nəzarət etmir.

Digər sahələr üzrə də Hayastanda vəziyyət sürətlə pisləşir, ölkə fəlakətə yuvarlanır. Bu onu göstərir ki, hakimiyyət sülh müqaviləsinin imzalanmasını yubatdıqca İrəvan sonu görünməyən böhrana sürüklənir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə məxsus "İnzibati xəta haqqında işin aidiyyəti üzrə göndərilməsi barədə Qərardad" MN seriyalı 0047136, "İnzibati xəta haqqında Protokol"un MN seriyalı 1496260 nömrəli ciddi hesabat blankları itdiyi üçün etibarsız sayılır.

Şirvan şəhəri 20 Yanvar küçəsində yerləşən "Əfsanə" kommersiya firmasına (İlqar Səfər oğlu Cəfərov) məxsus 24 kv.m mağazanın sənədləri - Torpaq sahəsinin ayrılması barədə qərar, sərəncamdan çıxarış, mağazanın layihəsi, plandan çıxarış itdiyi üçün etibarsız sayılır.

Beynəlxalq yükdaşıma şirkəti "DOCKER" LLC-yə məxsus 848208 və 868275 nömrəli 3-cü ölkə Türkiyə icazə vərəqələri itdiyi üçün etibarsız sayılır.



# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC tabeliyində olan struktur idarələr üçün elektrik mallarının satın alınması məqsədilə *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 11 sentyabr 2023-cü il saat 17:00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177.**

***Tender komissiyası***


# Ölkə ərazisində hava əsasən yağmursuz keçəcək

Azərbaycanda sentyabrın 5-nə gözlənilən hava proqnozu açıqlanıb.




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman, az çiskin olacaq. Cənub-şərq küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 28-33° isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 40-50 faiz təşkil edəcək.

Abşeron çimərliklərində sentyabrın 5-də cənub-şərq küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəzlənəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 24-25°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 25-26° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 18-23°, gündüz 32-37° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 18-23°, bəzi yerlərdə 26° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 9-14°, gündüz 16-21°, bəzi yerlərdə 26° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 30-35° isti olacağı ehtimal edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Göyçay, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 27-32° isti, dağlarda gecə 10-15°, gündüz 20-25° isti olacağı ehtimalı var.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 30-35° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-22°, gündüz 27-32° isti, dağlarda gecə 16-19°, gündüz 20-25° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi AHİK sədrinin müavini, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Hikmət Osmanova əzizi

**MƏHBUBƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Hikmət Osmanova əzizi

**MƏHBUBƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva və Aparatın kollektivi iş yoldaşları İbrahim Abdullayevə atası

**FƏRRUX MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İba Həsənov, Akif, Fuad və Pərvin Hacıyevlər, Tofiq İsbəndiyarov və Rafiq Hüseynov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin əməkdaşı, polis polkovnik- leytenantı Rəşad Hacıyevə əzizi

**CƏMİL ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5501**
**Sifariş 2265**

**Qiyməti 40 qəpik**